**“Bu ayın sonunadək Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü olacaq”**



Bax 4

**“Aİ-nin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı ardıcıl mövqeyini yüksək qiymətləndiririk”**



Bax 6

**Nazirlər Kabinetində əmək münasibətlərinin tənzimlənməsinə həsr olunmuş müşavirə keçirilib**



Ba3



**“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir**

# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 009 (5974) 18 yanvar 2020-ci il. **Qiyməti 40 qəpik**

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Yüksək sürətlə inkişaf edən yol infrastrukturu

*Prezident İlham Əliyev: “Yolların tikintisi istiqamətində rekord nəticə əldə edilib”*



***Dövlət başçısı son vaxtlar çox önəmli dövlətlərarası layihələrin icra edildiyini deyib: “Bununla bərabər, keçən il çox önəmli dövlətlərarası layihələr icra edilmişdir. O cümlədən, Azərbaycan-Rusiya sərhədində yeni avtomobil körpüsünün istifadəyə verilməsi çox böyük hadisədir. Çünki...”***

*Bax 2*

## Yeni Azərbaycan Partiyası pulsuz efir hüququndan imtina ilə bağlı Mərkəzi Seçki Komissiyasına müraciət etdi



*Bax 4*

## Azərbaycan Dilqəm Əsgərovun və Şahbaz Quliyevin qanunsuz həbsi ilə bağlı BMT baş katibinə məktub göndərib



*Bax 4*

## “Human Rights Watch” erməni təşkilatı rolunda




***Erməni əsilli, ermənipərəst Sarah Lee Witsonun kimliyi, qondarma fəaliyyəti, ədalətsiz mövqeyi bir yana, bəs nəyə görə “Human Rights Watch” kimi bir təşkilat da beləcə ikili standart yanaşma tətbiq edir? Nəyə görə humanizmi təbliğ edən, humanizm və insanlıq prinsplərini rəhbər tutan bir təşkilat, insanlığa sığmayan əməllər və terror törədən bir toplumu müdafiə edir? Bu yekəlikdə bir təşkilatı, beynəlxalq qurumu bir erməni əsilli qadın idarə edir, yoxsa həmin təşkilat özü bu qadının ideyalarına və çürük əqidəsinə qul kimi xidmət edir? “Human Rights Watch” erməni təşkilatı rolunda niyə çıxış edir?***

*Bax 14*

## Ukraynalı jurnalist: Azərbaycanın yeni parlamenti ölkədə aparılan islahatlara müvafiq olacaq



Azərbaycanın yeni parlamenti ölkədə aparılan sistemli islahatlara müvafiq olacaq. Ukraynalı jurnalist Marina Qonçaruk bu fikri AZƏRTAC-a müsahibəsində söyləyib. Onun sözlərinə görə, Ukraynaya dost, onun mühüm strateji tərəfdaşı olan bu ölkədə baş verən bütün hadisələr ukraynalılar üçün maraq doğurur...

*Bax 6*

## İndoneziya saytı: Qanlı “Qara Yanvar” Azərbaycanın müstəqilliyinin başlanğıc nöqtəsi oldu




“Qanlı “Qara Yanvar” Azərbaycanın müstəqilliyinin başlanğıc nöqtəsi oldu” adlı məqalədə 30 il bundan əvvəl baş vermiş hadisələrə bir daha nəzər salınır, həmin tarixin Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin şanlı səhifələrindən biri olduğu vurğulanır. Məqalədə bildirilir ki, 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin Azərbaycana qarşı ...

*Bax 6*

**Dmitri Savelyev Bakıya “Əmək rəşadəti şəhəri” adı verilməsini təklif edib**



Bax 3

**Qanlı 20 Yanvar -xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi!**




Bax 5

**“İslahatlar parlament seçkilərində gənclərin yeni ideyalarla iştirakına stimul verəcək”**




Bax 5

# Yüksək sürətlə inkişaf edən yol infrastrukturu

## *Prezident İlham Əliyev: "Yolların tikintisi istiqamətində rekord nəticə əldə edilib"*



***Son illər paytaxt Bakıda və rayonlarda yol infrastrukturunun genişləndirilməsi ilə bağlı mühüm tədbirlər görülür. Həyata keçirilən məqsədyönlü işlər nəticəsində, yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək, istismara verilir. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin də göstəricisidir. Azərbaycan bu gün Avrasiya məkanında dinamik innovativ inkişaf edən lider dövlət, həm də iki qitə arasında mühüm və ən əlverişli nəqliyyat mərkəzidir. Bu mövqe düzgün siyasət, gələcək perspektivi aydın müəyyənləşdirən strateji kurs və vaxtında ən optimal islahatlar keçirilməsi, müasir layihələr icra edilməsi nəticəsində qazanılıb.***

### "Keçən il avtomobil yollarının tikintisi istiqamətində rekord nəticə əldə edilib"

Prezident İlham Əliyev Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul edərkən, bildirib ki, ötən il bütün sahələrdə əldə olunan nailiyyətlər nəqliyyat sahəsində də inkişaf etmişdir: "Keçən il Azərbaycanda bütün sahələr kimi, nəqliyyat sahəsi də inkişaf etmişdir. Bu inkişaf həm real layihələrdə özünü göstərir, eyni zamanda, beynəlxalq təşkilatların hesabatlarında əksini tapır".





Dövlət başçısı çıxışında bildirib: "Təkcə onu demək kifayətdir ki, keçən il avtomobil yollarının tikintisi istiqamətində rekord nəticə əldə edilmiş, 1300 kilometr avtomobil yolu çəkilmişdir. Beləliklə, həm şəhərlərarası nəqliyyatın işi yaxşılaşdırılmış, eyni zamanda, magistral yolların çəkilişi davam etdirilmiş, yüzlərlə kəndin yolu abadlaşdırılmış və yenidən qurulmuşdur. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanda nəqliyyat sahəsində görülmüş işlərə yüksək qiymət verib. Bütövlükdə, Azərbaycanın nəqliyyat infrastrukturu Davosun hesabatında dünya miqyasında 31-ci yerdədir. Bu, kifayət qədər böyük göstəricidir. Bu göstəriciyə görə biz bir neçə inkişaf etmiş ölkəni də qabaqlamışıq. Avtomobil yollarının keyfiyyətinə görə, biz dünyada 27-ci yerdəyik. Dəmir yolu nəqliyyatının səmərəliliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə, 12-ci yerdəyik".

### "Azərbaycan-Rusiya sərhədində yeni avtomobil körpüsünün istifadəyə verilməsi çox böyük hadisədir"

Dövlət başçısı son vaxtlar çox önəmli dövlətlərarası layihələrin icra edildiyini deyib: "Bununla bərabər, keçən il çox önəmli dövlətlərarası layihələr icra edilmişdir. O cümlədən, Azərbaycan-Rusiya sərhədində yeni avtomobil körpüsünün istifadəyə verilməsi çox böyük hadisədir. Çünki əvvəlki körpü 1950-ci illərdə tikilmişdi və demək olar ki, sıradan çıxmışdı. Yeni körpü Azərbaycan ilə Rusiya arasında həm nəqliyyat, həm ticarət əlaqələrinin inkişafına xidmət göstərəcək, eyni zamanda, bu körpü Şimal-Cənub Nəqliyyat Dəhlizinin tərkib hissəsidir. Hazırda Rusiya sərhədinə qədər yeni avtomagistral çəkilir və ilin sonuna qədər bu magistralın əsas hissəsi istismara veriləcəkdir".

Prezident İlham Əliyev vurğulayıb ki, paralel olaraq, Astara şəhərindən İran sərhədinə qədər yeni magistralın çəkilişi nəzərdə tutulur: "Bu məsələ İran tərəfi ilə razılaşdırılıb. Beləliklə, yük avtomaşınları Astara şəhərinə girmədən birbaşa İran istiqamətinə gedə biləcək və yeni avtomobil körpüsü də tikiləcəkdir. Bir neçə il bundan əvvəl, iki ölkə arasında yeni dəmir yolu körpüsü tikilmişdir və Şimal-Cənub Nəqliyyat Dəhlizinin fəaliyyəti üçün bunun böyük əhəmiyyəti olmuşdur. Əlbəttə, keçən il Şərq-Qərb Nəqliyyat Dəhlizi üzrə daha çox yük daşınmışdır. Bu da təbiidir, çünki Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra bu istiqamətdə böyük canlanma var. Təkcə Şərq istiqamətindən yox, eyni zamanda, Rusiyadan Azərbaycan ərazisindən Türkiyə və Avropa istiqamətinə yüklərin daşınması müşahidə olunur və ildən-ilə bu yüklərin həcmi artacaq. Beləliklə, açıq dənizlərə çıxışı olmayan Azərbaycan beynəlxalq Avrasiya nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir".

Dövlət başçısının sözlərinə görə, builki investisiya proqramında nəqliyyat sektorunun inkişafı üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub. Eyni zamanda, avtomobil yollarının, dəmir yollarının çəkilişi ilə bağlı konkret layihələr icra ediləcəkdir.

### Düşünülmüş siyasətin uğurlu nəticələri

Bəli, inkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəricilərdir. Eyni zamanda, təbii ki, bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur və vəziyyət mənfi istiqamətdə inkişaf edir: "Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə, Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".

Bir sözlə, son 16 ilin reallıqları, bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar və həyata keçirilən dövlət proqramları, bütün sahələrdə uğurların əldə olunması Prezident İlham Əliyevin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. Bu gün, həqiqətən də, Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizdə bölgələrin sosial-iqtisadi inkişafı başlıca prioritetlərdən biri kimi müəyyənləşdirilib, qarşıya qoyulan hədəflərə uyğun olaraq, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də, digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir. Çünki Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli xidmət prinsipi üzərində qurulmuşdur.

Əminliklə demək olar ki, Azərbaycan xalqını xoşbəxt gələcəyə aparan bu siyasət, bundan sonra da uğurla davam etdiriləcək, respublikamız Prezitdent İlham Əliyevin rəhbərliyi altında öz inkişaf tempini sürətləndirəcək və qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaqdır.

**RƏFİQƏ KAMALQIZI**



# Nazirlər Kabinetində əmək münasibətlərinin tənzimlənməsinə həsr olunmuş müşavirə keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də ötən ilin yekunlarına həsr olunmuş müşavirədə hökumətə müvafiq tapşırıqlar verib. Bununla əlaqədar yanvarın 17-də Nazirlər Kabinetində müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, həmin tapşırıqların icrası ilə bağlı ilk müşavirə qeyri-rəsmi məşğulluğun leqallaşdırılması məsələsinə həsr olunub. Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov bildirib ki, Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə hökumət qarşısında 25-dən çox tapşırıq qoyub. Nazirlər Kabineti bu tapşırıqları sistemləşdirib və həyata keçirilməsi üçün Tədbirlər Planı hazırlayıb, bununla bağlı müvafiq Sərəncam imzalanıb.

Baş Nazir Əli Əsədov deyib ki, Prezident İlham Əliyev müşavirədə qeyri-rəsmi məşğulluğun qarşısının alınmasını, şəffaflığın artırılmasını xüsusi vurğulayıb və bugünkü toplantı Prezidentin tapşırıqlarının icrası istiqamətində keçirilən ilk müşavirədir.

Əli Əsədov qeyd edib ki, son 2 ildə Dövlət Sosial Müdafiə Fonduna ödəmələrin 37 faizdən çox artması aparılan islahatların real göstəricisidir. Görülən işlərin nəticəsində vergi bazası da genişlənməkdədir. Amma, Azərbaycan Prezidentinin siyasi iradəsi belədir ki, bu iş daha da güclənməlidir.

Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin həlli ilə bağlı bu günədək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verən Baş Nazirin müavini, Komissiyanın sədri Əli Əhmədov deyib ki, son 15 ildə ölkədə 2 milyondan çox yeni iş yeri yaradılıb, işsizliyin səviyyəsi 5 faizə enib. Tədbirlər planı 5 bölmədən 36 maddədən ibarətdir. İndiyədək həmin maddələrin 18-i tam, 7-si qismən icra edilib, 11 maddə üzrə işlər mütəmadi icra olunacaq. Ümumilikdə görülmüş işlər müsbətdir. 2017-ci ilin ikinci yarısından 2019-cu ilin sonunadək ümumilikdə 300 minədək əmək müqaviləsinin artımı müşahidə olunub. İlbəil dinamikanın artması da yaxşı göstəricidir. Təkcə 2019-cu ildə bu göstərici 153 min olub. Həmin 300 minədək artım ümumilikdə məşğul əhalinin faiz etibarilə artımının 21,2 faizi deməkdir.

Əmək və sosial hüquqların qorunması ilə bağlı görülən işlər barədə məruzə edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, 2019-cu ildə əmək müqavilələri üzrə qeydə alınan 153 min artımın 99 mini məhz özəl sektorun payına düşüb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov isə qeyd edib ki, qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində 2019-cu ildə yerlərdə bir sıra operativ vergi tədbirləri keçirilib. İl ərzində 7294 pozuntu fakt aşkarlanıb və qanunvericiliyə uyğun olaraq ilk hal olduğu üçün sahibkarlara yazılı xəbərdarlıq edilib. Lakin bundan nəticə çıxarmayaraq təkrarən belə addım atan şəxslərə 268 min manat maliyyə sanksiyası tətbiq olunub, 27 fakt üzrə cinayət işi açılıb. İl ərzində vergi orqanlarının xətti ilə sosial sığorta haqları üzrə daxilolmalar 26 faiz artaraq 2 milyard 931 milyon manat təşkil edib, proqnoz 105,8 faiz icra olunub.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov bildirib ki, ötən 2 ildə Komissiyanın fəaliyyəti nəticəsində mühüm nailiyyətlər əldə olunub, çox güclü institusional baza yaradılıb. Real nəticələr görülən işlərin dinamikasında da özünü göstərir. Dövlət Statistika Komitəsi İqtisadiyyat və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri ilə birgə razılaşdırılmış metodologiya əsasında qeyri-rəsmi məşğulluğun səviyyəsinin qiymətləndirilməsi üzrə təhlillər aparıb. Bu təhlillərin beynəlxalq metodologiya əsasında hazırlanması üçün xarici ekspertlər cəlb olunub. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib: "Təhlillər göstərir ki, qeyri-rəsmi məşğulluğun yüksək olduğu sahələrdən biri də tikinti sektorudur. 2017-2019-cu illərdə bu sahədə 171 monitorinq həyata keçirilib, 170 min 600 əmək müqaviləsi imzalanıb ki, onların 90 min 451-i və ya 45 faizi sırf bu monitorinqlər nəticəsində işəgötürənlər tərəfindən bağlanmış müqavilələrdir. Yəni, monitorinqlər bu sektorda əmək müqavilələrinin 45 faiz rəsmiləşdirilməsinə imkan yaradıb".

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib ki, tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması istiqamətində görülən işlər çərçivəsində komitə tikintiyə dair verdiyi icazələr, icazə almış hüquqi və fiziki şəxslər barədə məlumatları Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzinə göndərir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri Səttar Möhbalıyev qeyd edib ki, son dövrlərdə əmək hüquqlarının müdafiəsi ilə bağlı Azərbaycanda görülən işlər Beynəlxalq Əmək Təşkilatında yüksək qiymətləndirilir.

Müzakirələrdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə, Bakı Nəqliyyat Agentliyinin idarə heyətinin sədri Vüsal Kərimli, Daxili İşlər nazirinin müavini İsmət Əliyev, Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyev, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev iştirak ediblər.

Sonda məsələni nəzarətdə saxlamaq, vaxtaşırı hesabat hazırlamaq barədə müvafiq qurumlara tapşırıqlar verilib və Azərbaycan Prezidentinin göstərişinə əsasən sıx koordinasiyanın vacibliyi qeyd olunub.

# RF Dövlət Dumasının deputatı Dmitri Savelyev Bakıya "Əmək rəşadəti şəhəri" adı verilməsini təklif edib




RF Dövlət Dumasının deputatı Dmitri Savelyev Bakıya "Əmək rəşadəti şəhəri" adı verilməsini təklif edib. 2020-ci ildə Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi qeyd ediləcək.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar, Rusiya Dövlət Dumasında "Sakinləri hərbi və mülki təyinatlı məhsullar istehsal edən müəssisələrdə fasiləsiz işi təmin etmiş, bu zaman kütləvi əmək fədakarlığı göstərmiş şəhərlərə "Əmək rəşadəti şəhəri" adı verilməsinin hüquqi əsaslarını müəyyən edən qanun layihəsi müzakirə olunub.

Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev bununla əlaqədar xatırladıb ki, bu gün Rusiya şəhərləri ilə bərabər, SSRİ dağılandan sonra başqa dövlətlərin ərazisində qalmış şəhərlər, məsələn Odessa, Kiyev və Brest qalası da "Qəhrəman" adı daşıyır.

Rusiyalı deputat vurğulayıb: "İndi, "Əmək rəşadəti şəhəri"nin yüksək statusunu müzakirə etdiyimiz məqamda bir presedenti hökmən nəzərə almaq lazımdır: bu ada postsovet məkanındakı şəhərlər də layiqdirlər. Məsələn, Bakıya "Qəhrəman şəhər" adı verilməsi məsələsi dəfələrlə qaldırılıb. Böyük Vətən Müharibəsi dövründə Bakı sakinləri sovet tanklarını və təyyarələrini yanacaqla təchiz etmək üçün gecə-gündüz işləyiblər. Müharibə illərində Azərbaycanda "Bizim Stalinqrad hər bir neft quyusunun yanındadır" sözləri yazılmış plakatlar asılmışdı. Sovet ordusu üçün lazım olan bütün yanacağın 80 faizi buradan daxil olurdu.

Əvvələn, Rusiya SSRİ-nin hüquqi varisidir, ikincisi, bizim dövlətimiz xalqımızın tarixi yaddaşının qorunub saxlanmasına yönəlmiş siyasi kursa həmişə birmənalı şəkildə riayət edib. Bu mənada vurğulamaq məntiqlidir ki, Böyük Vətən Müharibəsində Qələbə ovaxtkı vahid sovet xalqının hədsiz səyləri sayəsində qazanılıb. Bu gün biz müxtəlif ölkələrdə yaşasaq da, cəbhədə həlak olanlara və cəbhənin ehtiyacı üçün işləyənlərə, özü də bir daha vurğulamaq istəyirəm, gecə-gündüz işləyənlərə ehtiramımızı ifadə edə bilərik. Ona görə də bu qanun layihəsində Bakıya bu yüksək adın verilməsi imkanının nəzərə alınmasını istərdik.

# "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası uğurla başa çatıb

*Ötən ilin dekabr ayının 1-dən bu il yanvarın 13-dək "Nargis" fondu tərəfindən Fəvvarələr meydanında təşkil olunan "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası uğurla başa çatıb.*





Fonddan AZƏRTAC-a bildirilib ki, artıq yeddinci ildir keçirilən qış yarmarkasından əldə olunan gəlir 401.479 AZN təşkil edib. Ənənəyə sadiq qalaraq, toplanan ümumi gəlir müxtəlif diaqnozlu körpələrin müalicə və əməliyyatları üçün sərf olunub. Bundan əlavə, yarmarkanı dəyərli və fəxri qonaqlarımız - uşaq evlərin sakinləri ziyarət ediblər.

Xeyriyyə yarmarkası ilə bağlı daha ətraflı məlumatı, xəstəxana fakturalarını və fond tərəfindən edilən bank köçürmələrini nargisfund.com saytımızdan əldə etmək olar.

Qeyd edək ki, xeyriyyə fondu 2012-ci ildə "Nargis" jurnalının baş redaktoru Ülviyyə Mahmudova tərəfindən Azərbaycanda xeyriyyə ənənələrini yaşatmaq və davam etdirmək məqsədi ilə təsis edilib, 2013-cü ildə isə aktiv fəaliyyətə başlayıb. Məhz o zaman bu gözəl ənənənin - "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkasının təməli qoyulub. Təsis olunduğu gündən etibarən fond tərəfindən bir sıra xeyriyyə layihəsi, uşaq evləri və qocalar evlərinə, aztəminatlı ailələrə maddi dəstək, habelə müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyatları həyata keçirilib. 2019-cu ildən etibarən Novruz bayramına həsr olunan yaz yarmarkası "Torpaq əlimdə, bahar ürəyimdə" fond tərəfindən təşkil edilir.





# Azərbaycan Dilqəm Əsgərovun və Şahbaz Quliyevin qanunsuz həbsi ilə bağlı BMT baş katibinə məktub göndərib

***Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin rəhbərinin azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən qanunsuz həbs olunması ilə bağlı BMT-nin Baş katibinə ünvanladığı məktub BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi dərc edilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Sənəddə Ermənistan tərəfindən nəzarət olunan, təcavüzün, irqi ayrı-seçkiliyin və etnik təmizləmənin nəticəsindən başqa bir şey olmayan qondarma rejimin qeyri-qanuniliyinin beynəlxalq səviyyədə dəfələrlə bəyan edildiyi öz əksini tapıb.***

Sənəddə Ermənistan tərəfindən nəzarət olunan, təcavüzün, irqi ayrı-seçkiliyin və etnik təmizləmənin nəticəsindən başqa bir şey olmayan qondarma rejimin qeyri-qanuniliyinin beynəlxalq səviyyədə dəfələrlə bəyan edildiyi öz əksini tapıb. Bu xüsusda, 2015-ci ilin 16 iyun tarixində qəbul edilmiş “Çıraqov və başqaları Ermənistana qarşı” adlı Avropa İnsan Haqları Məhkəməsinin Böyük Palatasının qərarına istinad olunaraq qeyd edilir ki, Ermənistan Dağlıq Qarabağ regionunda və Azərbaycanın işğal olunmuş digər ərazilərində tam nəzarəti həyata keçirir.

Eyni zamanda, sənəddə beynəlxalq ictimaiyyətin Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ regionu və ətraf ərazilər də daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəklədiyi, eləcə də Azərbaycan ərazilərinin işğalının pislənildiyi qeyd olunur, işğal edilmiş ərazilərdən bütün Ermənistan qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasının tələb olunduğu bildirilir.

Sənəddə 2014-cü il 11 iyul tarixində azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Kəlbəcər rayonunda doğma torpaqlarını və ata-analarının məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülməsi və digər azərbaycanlı mülki şəxs Həsən Həsənovun qəddarcasına qətlə yetirilməsi faktı öz əksini tapıb.

Erməni tərəfinin uydurulmuş iddialar əsasında qanunsuz olaraq D.Əsgərovu “ömürlük”, Ş.Quliyevi isə “22 il müddətinə azadlıqdan məhrum etdiyi” sənəddə xüsusilə vurğulanır. Eyni zamanda, Həsən Həsənovun nəşinin demək olar ki, 3 aydan sonra, 2014-cü ilin 2 oktyabr tarixində Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin vasitəçiliyi ilə qaytarıldığı qeyd olunur.

2019-cu ilin 5-6 dekabr tarixlərində Bratislavada ATƏT-in Nazirlər Şurasının 26-cı iclasında Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun çıxışı zamanı xüsusilə D.Əsgərov və Ş.Quliyevin məsələsinə toxunduğu, Ermənistan tərəfinin isə “hamının hamıya” prinsipi əsasında onların azad edilməsinin əleyhinə olduğu sənəddə vurğulanır.

Bu xüsusda, Azərbaycanın BMT yanında daimi nümayəndəsi D.Əsgərov və Ş.Quliyevin qanunsuz həbsi ilə əlaqədar BMT Baş katibinə ünvanladığı məktubda Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı qondarma rejimin qanunsuz və səlahiyyətsiz qurumu tərəfindən sözügedən şəxslərin uydurma ittihamlar əsasında qanunsuz olaraq həbs edildiyini, saxlanıldığını, süni “məhkəmə” ilə üzləşdiklərini və uzunmüddətli azadlıqdan məhrumetmə ilə məhkum olunduqlarını xüsusilə qeyd edib. Eyni zamanda, D.Əsgərov və Ş.Quliyevə qarşı irəli sürülən ittihamlar barədə onlara məlumat verilmədiyi, eləcə də bir müddət yazışma və ünsiyyət hüququndan məhrum etməklə saxlanıldıqları məktubda diqqətə çatdırılır.

Sənəddə qondarma “məhkəmə”dən öncə və “məhkəmə” ərzində onların Ermənistan rəsmiləri tərəfindən səslətdirilmiş bəyanatlarda “təxribatçılar”, “qatillər” və “muzdlu cinayətkarlar” kimi qələmə verildiyi diqqətə çatdırılır, eləcə də sözügedən şəxslərə qarşı irəli sürülən ittihamların onların başa düşdükləri dildə izah olunmadığı, tərcüməçi vasitəsilə onlara adekvat köməyin göstərilmədiyi və “məhkəmə”nin onların başa düşmədiyi erməni dilində aparıldığı bildirilir.

Hazırda D.Əsgərov və Ş.Quliyevin həbsxanada tam təcrid vəziyyətində saxlanıldığı və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən səfərlər istisna olmaqla heç bir əlaqələrinin olmadığı sənəddə vurğulanır. Burada, həmçinin D.Əsgərov və Ş.Quliyevin etnik mənşəyinə və milli mənsubiyyətinə görə diskriminasiyaya məruz qaldığı qeyd olunur və onların həbslərinin heç bir hüquqi əsasının və ya legitimliyinin olmadığı, eləcə də sözügedən şəxslərin hüquqlarının pozulmasının Avropa İnsan Hüquqları Məhkəməsində şikayət mövzusu olduğu bildirilir.

Sonda sənəddə Azərbaycan Respublikasının BMT, eləcə də onun müvafiq insan hüquqları mexanizmləri və prosedurlarının D.Əsgərov və Ş.Quliyevin taleyinə biganə qalmayacağını, eləcə də onların dərhal və qeyd-şərtsiz azad olunması və ailələri ilə bir araya gəlmələrinin təmin edilməsi istiqamətində səy göstərəcəklərini gözlədiyi qeyd olunur.

BMT tərəfindən dərc edilmiş sənədlə aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür: https://documents-dds-ny.un.org/doc/UNDOC/-GEN/N19/444/89/pdf/N1944489.pdf .

# Yeni Azərbaycan Partiyası pulsuz efir hüququndan imtina ilə bağlı Mərkəzi Seçki Komissiyasına müraciət etdi

2020-ci il fevral ayının 9-da Milli Məclisə keçiriləcək seçkilərdə seçki dairələrinin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiya kimi Yeni Azərbaycan Partiyası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, kütləvi informasiya vasitələrində pulsuz təşviqat aparmaq hüququ qazanmışdır. Lakin partiya bu hüququndan imtina etmək qərarına gəlmişdir. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Komissiyasına ünvanladığı müvafiq məktubunda bu qərarını Milli Məclisə seçkilərdə iştirak edən digər siyasi partiyalar və bitərəf namizədlərin seçkiqabağı təşviqatı zamanı bərabərlik prinsipinin gözlənilməsi ilə əlaqələndirmişdir. YAP Seçki Məcəlləsinin 80-ci maddəsinin tələbinə uyğun olaraq televiziya və radioda seçkiqabağı təşviqatın aparılması məqsədilə nəzərdə tutulan pulsuz efir vaxtından, eləcə də 83-cü maddəsinin tələbinə uyğun olaraq dövri nəşrlər vasitəsilə seçkiqabağı təşviqatı pulsuz aparmaq hüququndan istifadə etməmək barədə qərarını qurumun diqqətinə çatdırmışdır.

# “Bu ayın sonunadək Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü olacaq”



Bu ayın sonunadək Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi planlaşdırılıb. Bu barədə jurnalistlərə açıqlamasında Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov bildirib. Nazir deyib ki, ATƏT-in fəaliyyətdə olan sədrinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Anji Kaspşiklə görüşdə bu məsələ müzakirə olunub. Elmar Məmmədyarov, həmçinin bu ilin birinci rübündə ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona səfərinin nəzərdə tutulduğunu qeyd edib.

# Prezidentin köməkçisi: “Ermənistan tərəfi münaqişənin həlli ilə bağlı cəfəng fikirlər söyləmək əvəzinə lazımi addımları atmalıdır”



Ermənistan tərəfi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı cəfəng fikirlər söyləmək əvəzinə lazımi və labüd addımları atmalıdır. Bu addım da, ilk növbədə, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi qeyd edib ki, münaqişənin həlli populizm obyekti olmamalıdır. Ermənistan işğalçı dövlətdir, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün var. Ona görə də Dağlıq Qarabağ münaqişəsinin həllində irəliləyiş əldə etmək istəyiriksə, münaqişənin fundamental əsasını təşkil edən amil, yəni, işğal amili aradan qaldırılmalıdır. Sonra münaqişənin həllində müxtəlif etimad quruculuğu xarakteri daşıyan tədbirlərin həyata keçirilməsi kimi məsələlər ola bilər. Ermənistanın üzərinə düşən beynəlxalq, hüquqi və siyasi məsuliyyət ondan ibarətdir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarsın. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlərini dayandırmalıdır. Məhz bundan sonra Ermənistan tərəfi iddia edə bilər ki, danışıqlar prosesində konstruktiv və səmimi şəkildə iştirak edir.

Prezident Administrasiyasının rəsmisi Ermənistanın baş nazirinin 20 Yanvar şəhidlərini ekstremistlər adlandırmasına da münasibət bildirib: “Bu, cəfəngiyatın bariz nümunəsidir, ondan başqa nə gözləmək olardı?! Nikol Paşinyan Soljenitsını faşist cəlladı, faşist qüvvələrinin tərkibində qulluq etmiş Qaregin Njde ilə müqayisə etmişdi”. Hikmət Hacıyev deyib ki, 20 Yanvar faciəsi beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunur və şəhidlərin xatirəsi əziz tutulur. İyirmi Yanvar beynəlxalq səviyyədə, bütün diplomatik nümayəndəliklərimizdə də qeyd olunur. Bu faciə ilə bağlı müxtəlif tədbirlər keçirilir, həqiqətlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır.

**1990-cı ildə Bakıda 20 Yanvar və Azərbaycan tarixində ondan əvvəl baş vermiş faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Sovet rəhbərliyinin himayədarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.**

# Qanlı 20 Yanvar -xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi!

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq 30 il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. SSRİ 1956-cı ildə Çexoslovakiyaya, 1968-ci ildə Macarıstana və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni həmin vaxta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi.

### Ermənistanın Azərbaycana təcavüzü və 20 Yanvar faciəsinə aparan yol

Heç şübhəsiz ki, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni ideoloqları və onların ilhamvericiləri Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün ittifaq miqyasında yaymışdılar.

Ümummilli lider Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. Ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda iki komitəsi - Yerevanda "Qarabağ" komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı olan "Krunk" açıq fəal mübarizəyə başlamış, separatçılıq hərəkatı genişlənmişdi.

1988-ci il hadisələri başlayanda ilk vaxtlar vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndidə və Yerevanda davamlı tətillər keçirilərək, müəssisələr dayandırılır və kütləvi mitinqlər təşkil edilirdi. Lakin baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin təbeliyinə verildi. Birbaşa mərkəzin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nin tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da, Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi.




Nəticədə, sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1988-ci ilin sonu-1989-cu ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu. Bu dövrdə Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistanla birləşməyin zəruriliyinə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət buna nail olmaq üçün Dağlıq Qarabağdan azərbaycanlıları soyqırımına və təcavüzə məruz qoyub didərgin salmış, eləcə də Ermənistandan azərbaycanlıların tarixən yaşadığı torpaqlardan zorakılıqla deportasiya etmişdir.

Beləliklə, Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməkliyi ilə vilayətdə əsl mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 Yanvarında qanlı faciəyə gətirib çıxardı. 1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri M.Qorbaçov "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman imzaladı. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla, lazımı tədbirlər görülsün.

Bununla yanaşı, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinə nəinki aidiyyəti olmayan və onun hüdudlarından kənarda yerləşən bir sıra ərazilərimiz Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bu genişmiqyaslı hərbi təcavüz münaqişəni mahiyyətcə yeni - işğalçılıq səviyyəsinə keçirdi. Hazırda təkcə Yuxarı Qarabağın deyil, eləcə də digər ərazilərimizin işğal altında olması Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində ərazi iddiasında olduğunu təsdiq edir. Belə ki, yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. 1920-ci illərdə Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində Kərki kəndi Ermənistan ərazisində anklav vəziyyətində qalmışdı. Kərki kəndinin işğal olunmasında Ermənistan ərazisindəki dislokasiya olunmuş SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun hərbçiləri də yaxından iştirak etmişdilər. Kərki kəndi hal-hazırda işğal altındadır. Ayın 19-da Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

1990-cı ilin yanvar ayında M.Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta bir tezis idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" həttа həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri, eləcə də 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.

M.Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00:00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüş: onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4 şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdi. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirilmişlər. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-yə çatmışdı.

### Qanlı 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi

O zaman yalnız ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etmişdir. 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 yanvar tarixli Fərmanında deyilir: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.

# İndoneziya saytı: Qanlı “Qara Yanvar” Azərbaycanın müstəqilliyinin başlanğıc nöqtəsi oldu




*İndoneziyanın “Mina news” saytı AZƏRTAC-ın bu ölkə üzrə xüsusi müxbiri Vüqar Ağayevin 20 Yanvar hadisələrinin 30-cu ildönümünə həsr olunmuş məqaləsini yayıb.*

“Qanlı “Qara Yanvar” Azərbaycanın müstəqilliyinin başlanğıc nöqtəsi oldu” adlı məqalədə 30 il bundan əvvəl baş vermiş hadisələrə bir daha nəzər salınır, həmin tarixin Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin şanlı səhifələrindən biri olduğu vurğulanır.

Məqalədə bildirilir ki, 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli siyasətinə, Dağlıq Qarabağ Muxtar Vilayətinə iddia edən Ermənistanın təcavüzkar hərəkətlərinin dəstəklənməsinə etiraz olaraq ayağa qalxmış xalqa amansız divan tutulub. Bu qanlı faciə nəticəsində 131 nəfər şəhid olub, 4 nəfər itkin düşüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz olaraq həbs edilib. Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi bu qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüz aktı idi. Keçmiş SSRİ rəhbərliyi BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, bu ölkənin iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdu. Məhz belə bir ağır şəraitdə ümummilli lider Heydər Əliyev SSRİ-nin Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı təcavüzə qarşı öz cəsarətli etiraz səsini ucaltmışdı. Sovet İmperiyasının bütün təzyiqlərinə baxmayaraq, Heydər Əliyev yanvarın 21-də ailə üzvləri ilə birlikdə Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etmiş, bu ağır günlərdə heç yerdən kömək ala bilməyən doğma xalqı ilə birgə olduğunu bəyan etmişdi. O, çıxışında və müsahibələrində 20 Yanvar faciəsinə siyasi qiymət verərək, əliyalın xalqa qarşı hücumu hüquqa, demokratiyaya, humanizmə zidd addım, İttifaq və respublika rəhbərlərinin günahı ucbatından yol verilmiş kobud siyasi səhv kimi ifşa etmişdi. Heydər Əliyev qorxmadan, özü və ailəsi üçün yaranmış real təhlükəyə baxmayaraq, M.Qorbaçov başda olmaqla SSRİ rəhbərlərinin əsl simasını xalqa göstərmişdi. O, Azərbaycan xalqına verdiyi başsağlığında bu ağır gündə təmkinli olmağa, həmrəyliyə və birliyə çağırmışdı. Ulu öndər Heydər Əliyevin tövsiyələrini rəhbər tutan Azərbaycan xalqı Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, yanvarın 22-də öz şəhidləri ilə vidalaşdı. Bu dəfn nəhəng izdihama çevrilərək, xalqımızın həmrəyliyini bütün dünyaya göstərdi və əsl milli birliyin nümayişinə çevrildi.

Məqalədə vurğulanır ki, sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 30 il keçməsinə baxmayaraq, həmin hadisələr zamanı xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən üstün tutan qəhrəmanlar əsla unudulmur. Hər ilin 20 Yanvar tarixi Azərbaycanda Ümumxalq Hüzn Günü kimi qeyd edilir. Bu tarix həm də Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzidir. Çünki Azərbaycanın 20 Yanvar şəhidləri bu ali dəyərlər uğrunda canlarından keçmiş ilk qəhrəmanlardır.

Ölkəmizin müstəqilliyi və suverenliyi uğrunda şəhid olanların xatirəsini əbədiləşdirmək məqsədilə ulu öndər Heydər Əliyevin 1998-ci il tarixli Fərmanı ilə Qanlı Yanvar faciəsi zamanı həlak olmuş Azərbaycan Respublikası vətəndaşları üçün “20 Yanvar Şəhidi” fəxri adı təsis edildi. Hər il yanvar ayının 20-də Prezident İlham Əliyev başda olmaqla bütün dövlət və ictimaiyyət nümayəndələri Bakıdakı Şəhidlər xiyabanını ziyarət edir və şəhidlərə öz ehtiramlarını bildirirlər.

Eləcə də Azərbaycanın bütün bölgələrindəki Şəhidlər xiyabanları yerli əhali tərəfindən ziyarət olunur. Həmin gün saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilir, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində, o cümlədən xaricdəki diplomatik nümayəndəlik və konsulluqlarında 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Azərbaycanın dövlət bayraqları endirilir, xatirə tədbirləri keçirilir.

Məqalədə xüsusi qeyd edilir ki, 1990-cı il yanvarın 20-də xalqımızın canlarından keçmiş mərd oğul və qızları Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsini yazdılar və onların bu igidliyi heç vaxt unudulmayacaq.



## Hikmət Hacıyev: “Aİ-nin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı ardıcıl mövqeyini yüksək qiymətləndiririk”

Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və suverenliyi ilə bağlı ardıcıl mövqeyinin olmasını təqdir edirik.

AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib. Hikmət Hacıyev qeyd edib ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib. “Biz bundan əvvəl Şərq Tərəfdaşlığı ilə əlaqədar Brüssel Sammitinin yekun sənədlərinə, həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında hazırlanmış “Tərəfdaşlıq prioritetləri” sənədinə baxsaq görərik ki, Azərbaycanın ərazi bütövlüyünə münasibətdə qətiyyətli və birmənalı dəstək var. Ona görə də bunun davamı olaraq Avropa İttifaqının xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsinə dair sənəddə Şərq Tərəfdaşlığı ölkələrinin, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyünə münasibətdə ifadə olunan bu mövqeni yüksək qiymətləndiririk”, - deyə Prezidentin köməkçisi bildirib.

## Azərbaycan beynəlxalq təşkilatların parlament seçkilərini izləməsi üçün lazımi şərait yaradıb



Azərbaycan beynəlxalq təşkilatların parlament seçkilərini izləməsi üçün lazımi şərait yaradıb. Azərbaycan beynəlxalq təşkilatların fevralın 9-da keçiriləcək parlament seçkilərini izləməsi üçün lazımi şərait yaradıb. SİA-nın məlumatına görə, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MSK-nın dünən keçirilən iclasında deyib. O qeyd edib ki, Azərbaycan daim seçkilər dövründə beynəlxalq təşkilatlarla əməkdaşlıq edib: “Bu seçkilərlə bağlı biz beynəlxalq təşkilatlara dəvət göndərmişik. Bir çoxları artıq müsbət cavab verib”.

## Arye Qut: “İslahatlar parlament seçkilərində gənclərin yeni ideyalarla iştirakına stimul verəcək”




Azərbaycanda aparılan islahatlar gənclərin öz potensiallarını göstərə bilmələri üçün yaxşı fürsət yaradıb. Eyni zamanda aparılan islahatlar fevralın 9-da keçiriləcək parlament seçkilərində gənclərin yeni ideya və mexanizmlərlə iştirakına stimul verəcək. SİA-nın xəbərinə görə, bu sözləri secki-2020.az saytına açıqlamasında israilli politoloq Arye Qut deyib.

O, yeni seçiləcək deputatların seçicilərinin qayğılarına daha həssas yanaşacaqlarına ümid etdiyini vurğulayıb. “Hazırda Azərbaycan dəyişikliklər, islahatlar yolundadır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrlə bağlı zəruri islahatlar həyata keçirilir. Prezident İlham Əliyev dərin təfəkkürə, dövlətin həyat fəaliyyətinin bütün istiqamətlərinə strateji və dəqiq yanaşmaya malik siyasətçidir”.

## Ukraynalı jurnalist: Azərbaycanın yeni parlamenti ölkədə aparılan islahatlara müvafiq olacaq



Azərbaycanın yeni parlamenti ölkədə aparılan sistemli islahatlara müvafiq olacaq. Ukraynalı jurnalist Marina Qonçaruk bu fikri AZƏRTAC-a müsahibəsində söyləyib. Onun sözlərinə görə, Ukraynaya dost, onun mühüm strateji tərəfdaşı olan bu ölkədə baş verən bütün hadisələr ukraynalılar üçün maraq doğurur.

M.Qonçaruk deyib: “Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə həyata keçirdiyi sistemli və səmərəli islahatlar siyasəti barədə məlumatımız çoxdur. Azərbaycan xalqı Prezidentin islahatlar siyasətinə çox müsbət münasibət bəsləyir. Buna görə də Azərbaycanın yenilənmiş parlamenti ölkənin sistemli inkişafının və firavanlığının təmin edilməsində mühüm dayaq olacaq. Əlamətdar haldır ki, seçkilərdə çoxsaylı gənclər, ictimai xadimlər və fəallar iştirak edir. Mənim fikrimcə, Azərbaycanda keçiriləcək seçkilər ölkədə bu prosesin demokratik və şəffaf olmasını bir daha təsdiq edəcək, xalq elə namizədləri seçəcək ki, onların seçkiqabağı platforması xalqın gözləntilərinə uyğun olsun. Azərbaycan xalqının xoş güzəranı, ölkənizdə baş verən müsbət proseslər bizi həmişə sevindirir”.

# ADA Universiteti Xarici İşlər Nazirliyi ilə birgə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan tədbir təşkil edib






Yanvarın 17-də ADA Universiteti Xarici İşlər Nazirliyi ilə birgə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan tədbir təşkil edib. AZƏRTAC xəbər verir ki, ADA Universitetində keçirilən tədbirdə xarici ölkələrin səfirləri, bu ali təhsil müəssisəsinin müəllimləri və tələbələri iştirak ediblər.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva tədbiri açaraq 20 Yanvar faciəsinin xalqımızın azadlıq mübarizəsinin rəmzi, şəhidlərin isə ilk qəhrəmanlarımız olduğunu söyləyib. O vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin dediyi kimi, 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq o, təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin, azadlıq istəyinin oyanış günü idi.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev bildirib ki, Azərbaycan xalqı 20 Yanvarı həm kədərlə, həm də qürurla qeyd edir. Qürurla ona görə qeyd edir ki, 20 Yanvar müstəqilliyimizin müəyyənləşdirilməsində çox mühüm rol oynayıb.

Hafiz Paşayev ABŞ-da 20 Yanvar faciəsi ilə bağlı dərc edilən məqalələrdən, kitablardan söz açıb. O deyib ki, Azərbaycanın müstəqillik hərəkatı ilə bağlı həqiqətləri amerikalılara çatdırmaq çox vacib idi. Onlar bu mövzuya çox dərindən yanaşdılar. 1990-cı ilə qədər amerikalılar Azərbaycan haqqında çox şey bilmirdi və o hadisələr zamanı baş verənlər haqqında çoxlu yalan məlumatlar var idi.

Xarici İşlər naziri Elmar Məmmədyarov deyib ki, 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş ən qanlı hadisələrdən biridir. Bu faciənin törədilməsinin müxtəlif səbəbləri var idi. Bu hadisələrin arxasında müəyyən qüvvələr dayanırdı. Guya keçmiş sovet qüvvələri Azərbaycan xalqını qorumağa gəlmişdi. Lakin SSRİ Müdafiə naziri Dmitri Yazov sonradan demişdi ki, onların əsas məqsədi sovet idarəçiliyini qorumaq, qeyri-kommunist, milli qüvvələri cəzalandırmaq idi. Onlar, eyni zamanda, bununla digər sovet ölkələrindəki milli qüvvələrə bir dərs vermək istəyirdilər. İyirmi Yanvar faciəsi Azərbaycanda 70 illik sovet idarəçiliyinin sona çatmasına səbəb oldu.

Nazir Sumqayıt hadisələrinin başvermə səbəblərindən də danışıb. O qeyd edib ki, bu hadisələrin arxasında da müəyyən qüvvələr dayanırdı. Sumqayıt hadisələri zamanı Eduard Qriqoryan şəxsən Sumqayıtda 6 erməninin qətlə yetirmişdi.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, 20 Yanvar faciəsi təkcə elə həmin gecə baş verən bir hadisə deyildi. 20 Yanvara Sumqayıt hadisələrindən başlayan və Xocalıda davam edən bir hadisə kimi baxmaq lazımdır. Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə prosesi aparılırdı və bu proses Dağlıq Qarabağda da həyata keçirildi. Bu proseslər məhz ulu öndər Heydər Əliyevin sovet rəhbərliyindən uzaqlaşdırılmasından sonra həyata keçirildi. İyirmi Yanvara hərbi nöqteyi-nəzərdən də baxmaq lazımdır. Bakının yad şəhər kimi işğalı planı hazırlanmışdı. Tank və digər birləşmələrdən istifadə edildi, yalnız artilleriya çatmırdı. Məqsəd insanları küçələrdə kütləvi şəkildə öldürmək idi. Bu proses həm də informasiya blokadası şəraitində həyata keçirildi. Xarici jurnalistlər Moskvada akkreditasiyada idi və Bakıya buraxılmamışdılar. Ulu öndər Heydər Əliyevin Moskvada Azərbaycan nümayəndəliyinə getməsi və orada mətbuat konfransı keçirməsindən sonra beynəlxalq mediada fərqli mənzərə yarandı. Prezidentin köməkçisi qeyd edib ki, sovet hökumətinin istəyi Azərbaycan xalqının iradəsini qırmaq idi. Ancaq bu, mümkün olmadı. Biz müstəqilliyimizi əldə etməyə nail olduq. Tədbir digər çıxışlarla davam edib.

# Qabil Orucov: Seçki prosesi qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir



"Yanvarın 17-də Milli Məclisə seçkilərlə əlaqədar namizədliyi qeydə alınmış şəxslərin seçkiqabağı təşviqat kampaniyasına başlanılıb. Təşviqat kampaniyası 2020-ci il yanvarın 17-dən fevralın 8-i səhər saat 08:00-a qədər olan dövrü əhatə edir." Bunu secki-2020.az saytına açıqlamasında Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov bildirib. MSK üzvü deyib ki, bu günə qədər 1623 nəfərin deputatlığa namizədliyi qeydə alınıb. Bu, əvvəlki parlament seçkiləri ilə müqayisədə rekord göstəricidir. Azərbaycanda güclü siyasi iradə mövcuddur və seçki prosesində iştirak etmək istəyən passiv seçki hüququ subyektləri bu mühitdən kifayət qədər yararlanmaq arzusundadırlar.

"Seçki prosesi qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir. İnanıram ki, seçki prosesinin əsas mərhələsi olan səsvermə də qanunvericiliyin tələblərinə uyğun reallaşdırılacaq", - deyə Qabil Orucov vurğulayıb.



# Aleksey Boxodin: "Azərbaycan qəhrəmanlar ölkəsidir"

Azərbaycanın qədim dövlətçilik tarixi, zəngin təbii ehtiyatları, əsrarəngiz təbiəti, qonaqpərvər və qəhrəman insanları var. Bu sözləri AZƏRTAC-a müsahibəsində Tbilisidəki Belarus icmasının üzvü Aleksey Boxodin söyləyib. Cənubi Qafqaz ölkələrinin tarixini yaxşı öyrəndiyini vurğulayan Boxodin deyib: Bu ərazidə Azərbaycanın xüsusi rolu və yeri var. Azərbaycanın təşəbbüsü ilə regionda həyata keçirilən irimiqyaslı layihələr təkcə bir xalqın deyil, Avropanın da inkişafında mühüm rol oynayır. Azərbaycan dünyada tanınan, müstəqil siyasəti olan bir ölkədir. Amma bu müstəqillik asan başa gəlməyib. Bu günlərdə Gürcüstanda da 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılır. Bu faciə Azərbaycan tarixinə qanla yazılmış qəhrəmanlıq səhifəsidir.

İcma üzvü qeyd edib ki, əliyalın, silahsız tankların, azğın imperiya qoşunlarının qarşısına çıxmaq əsl qəhrəmanlıqdır. Yüzlərlə insan canından keçib, yüzlərlə insan yaralanıb, itkin düşüb. Amma heç bir qüvvə, heç bir silah xalqın azadlıq sevgisini boğa bilməyib. Bu isə onu deməyə əsas verir ki, qanla əldə olunmuş müstəqillik, azadlıq daimidir. "Bizdə belə bir fikir var: Azərbaycan qəhrəmanlar ölkəsidir. Bu xalq azad yaşamağa layiqdir və yaşayacaqdır", - deyə Aleksey Boxodin vurğulayıb.

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"



## Qusar seçiciləri ona inanır və etibar edirlər



***Dünən YAP Qusar rayon təşkilatında 51 saylı Qusar seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Azər Badamovun təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon seçiciləri ilə görüşü keçirildi.***

Görüşü giriş sözü ilə YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, Azərbaycanda son illərdə keçirilən seçkilərin demokratik prinsiplər əsasında həyata keçirildiyini bildirdi: "Dövlət tərəfindən görülən işlərin nəticəsi olaraq, seçicilər bu proseslərdə fəal iştirak edir, namizədlərinə səs verirlər. Azərbaycanda keçirilən seçkilərin şəffaflığı müstəqil dövlətimizin inkişafına təsirini göstərir. Artıq keçirilən seçkilər zamanı əldə olunan nailiyyətlər və təcrübə bizə bu fikirləri söyləməyə əsas verir. Artıq parlament seçkilərinin təbliğağ-təşviqat kampaniyasına start verilib".

O, həmişə olduğu kimi, 9 fevral tarixində keçiriləcək parlament seçkilərində seçiciləri partiyanın namizədinə səs verməyə çağırdı.

Seçicilərdən Neva Abdurahmanova və Vahid Mehdixanov seçkilərdə partiyanın namizədi Azər Badamova səs verəcəklərini bildirdilər.

**Nəzakət ƏLƏDDİNQIZI**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

## *Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasına start verdi*

***Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərin təbliğat - təşviqat kampaniyasına start verildi. YAP-ın Mərkəzi Seçki Qərargahının yerli strukturları əvvəlcədən müəyyənləşmiş qrafikə uyğun fəaliyyətə başlamış, Yeni Azərbaycan Partiyasının namizədlərinin təşviqat materialları bütün dairələr üzrə müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyənləşmiş ünvanlarda yerləşdirilmiş, YAP-ın Milli Məclisin deputatlığına namizədlərinin seçicilərlə görüşlərinə başlanmışdır.***

### NƏRİMANOV






YAP-ın Nərimanov rayon təşkilatının Seçki Qərargahı parlament seçkiləri kampaniyasını fəal şəkildə həyata keçirir. Belə ki, Nərimanov rayonunda Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Hikmət Baba oğlu Məmmədovun təbliğat-təşviqat kampaniyasına start verilib.

### AĞSTAFA



YAP Ağstafa rayon təşkilatı 9 fevral 2020-ci ildə ölkəmizdə keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə seçkilər ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən na-



mizədliyi irəli sürülmüş Cəfərov Nizami Qulu oğlunun təbliğat-təşviqat kampaniyasına uğurla start verdi. YAP Ağstafa rayon təşkilatının qərargahında 17 nəfərdən ibarət təbliğat qrupu yaradılmış, namizədin təbliğat kampaniyası çərçivəsində seçicilərlə görüşlərin keçirilməsi üçün lazımi tədbirlər görülübdür.

### ŞƏMKİR





Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatı tərəfindən 9 fevral 2020-ci il tarixdə ölkəmizdə keçiriləcək VI çağırış Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərin təbliğat-təşviqat kampaniyasına start verilib.

Kampaniya çərçivəsində partiyanın millət vəkilliyinə vahid namizədləri 98 saylı Şəmkir şəhər Seçki Dairəsi üzrə Qafarova Sahibə Əli qızı, 99 saylı Şəmkir kənd Seçki Dairəsi üzrə Həsənov Nurlan Urfan oğlu, 100 saylı Şəmkir-Daşkəsən Seçki Dairəsi üzrə Bayramov Kamran Fərhad oğlunun, üzərində Yeni Azərbaycan Partiyasının “Daha güclü Azərbaycan naminə” şüarı yazılan təbliğat plakatları müvafiq məntəqə, seçki komissiyalarının təbliğat lövhələrinə yerləşdirilib.

Təbliğat-təşviqat kampaniyası müddətində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Şəmkir rayon şöbəsi öncədən təsdiq olunmuş qrafikə uyğun olaraq, mütəmadi təbliğat görüşləri keçirəcək və seçicilərin seçki prosesinə fəal qoşulması istiqamətində silsilə görüşlər təşkil edəcək.

### SƏBAİL





YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsində seçki qanunvericiliyinə uyğun olaraq, Yeni Azərbaycan Partiyası tərəfindən 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Aytən Arif qızı Hüseynovanın təbliğat-təşviqat kampaniyasına start verilib. Milli Məclis seçkiləri ilə bağlı təşviqat materiallarını 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələri üzrə, ümumilikdə, 40 seçki məntəqəsinin ərazisində quraşdırılmış təşviqat lövhələrinə vurmağa başlanılıb.

### XAÇMAZ




YAP Xaçmaz rayon təşkilatı 9 fevral 2020-ci il tarixində keçiriləcək Milli Məclisə seçkilərinin Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Eldəniz Adil oğlu Səlimovla xaçmazlı gənclərlə görüşü keçirilib. Görüşdə YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev çıxış edərək demişdir ki, ölkə Prezidenti tərəfindən aparılan uğurlu islahatlar nəticəsində, dövlətimiz günü-gündən inkişaf edir, iqtisadiyyatımız güclənir və insanların rifah halı yaxşılaşır.

Milli Məclis deputatlığına namizəd Eldəniz Adil oğlu Səlimovun ötən çağırışda fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verib və bu seçkidə də xalqın elçisi olaraq, işini uğurla aparacağını bildirib.

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

## *Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasına start verdi*

### GƏDƏBƏY





Yeni Azərbaycan Partiyasının Gədəbəy rayon təşkilatı parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasına start verib. Rayon təşkilatında yaradılan Seçki Qərargahı, o cümlədən, təbliğat-təşviqat qrupu apararaq, YAP tərəfindən irəli sürülmüş namizədlərin plakatlarını xüsusi ayrılmış yerlərdə yapışdırıblar.

### OĞUZ





Fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, bu gündən seçkinin təbliğat-təşviqat kampaniyasına start verib. İlk olaraq, partiyanın rayon təşkilatının gənclər birliyinin fəallarından və təbliğat-təşviqat üzvlərindən təşkil olunmuş qruplar tərəfindən namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Aqiyə Naxçıvanlının seçki plakatlarını 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsinin əhatə etdiyi Oğuz rayonu üzrə 37 seçki məntəqəsinin ərazisində qurulmuş təşviqat lövhələrinə vurulub.

Tərtib olunmuş qrafikə uyğun olaraq, rayon seçiciləri ilə görüşlər keçiriləcək.

### TƏRTƏR





YAP Tərtər rayon təşkilatı fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasına start verib.

### SAMUX



Samux rayonunda parlament seçkiləri ilə bağlı təbliqat-təşviqat kampaniyasına start verilib. Bütün seçkilərdə olduğu kimi, parlament seçkilərində də xüsusi fəallığı ilə seçilən, ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyası növbəti seçkilərə də yüksək ab-hava ilə başlayıb. YAP Samux rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvləri də parlament seçkiləri ilə əlaqədar operativ fəaliyyətə başlayıblar. Yanvarın 17-də səhər saat 08.00-dan YAP Samux rayon təşkilatının fəalları YAP tərəfindən namizədliyi irəli sürülən namizədinin şəkilini və parlament seçkilərinə dair plakatları qanunla müəyyən olunmuş yerlərdə yapışdırırlar.

### KÜRDƏMİR



9 fevral 2020-ci il tarixində keçiriləcək VI çağırış Milli Məclis seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsində seçki qanunvericiliyinə uyğun olaraq, YAP tərəfindən 57 saylı Kürdəmir seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Qəribov Nizami İsməli oğlunun təşviqat kampaniyasına start verilib. Partiyanın fəalları səhər saatlarında Milli Məclis seçkiləri ilə bağlı təşviqat materiallarını təşviqat lövhələrinə vurmağa başlayıblar.

### NAFTALAN





Yeni Azərbaycan Partiyası Naftalan şəhər təşkilatı yüksək seçki əhval-ruhiyyəsilə Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçkilərdə partiya tərəfindən irəli sürülmüş namizədin təbliğat-təşviqat kampaniyasına start verib. YAP tərəfindən 96 saylı Goranboy - Naftalan seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş şəxsin şəkillərinin qanunla müəyyənləşdirilmiş yerlərdə yapışdırılması həyata keçirilib.

*Ardı Səh. 10*

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

## *Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verdi*

### BALAKƏN






VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində 109 saylı Balakən Dairə Seçki Komissiyasından Yeni Azərbaycan Partiyasının üzvü, əvvəlki seçkilərə Milli Məclisin üzvü olmuş və növbəti seçkilərdə namizədliyi irəli sürülmüş Nəsib Məhəməliyevlə görüş keçirilib. Görüşdə çıxış edən rayon Ağsaqqallar Şurasının sədri Rəşid Musayev Nəsib Məhəməliyevin rayonun əhalisi ilə sıx təmasda olduğunu, seçicilərin müraciətinə diqqətlə yanaşmışdır.

Tədbirdə çıxış edən Nizami adına şəhər orta məktəbin direktoru Şəfiqə Tütünçiyeva da N.Məhəməliyevin seçilərinə qayğı ilə yanaşdığını bildirib.

Tədbirdə çıxış edən 109 saylı DSK-dan Milli Məclisin üzvlüyünə namizəd Nəsib Məhəməliyev təbliğat kampaniyası dövründə seçicilərlə görüşlərdə Seçki Qərargahının üzvlərinin qarşılaşacağı problemlərə aydınlıq gətirərək, növbəti illər üçün Milli Məclisə üzv seçilərsə görəcəyi işlərdən, rayonumuz üçün inkişaf proqramının həyata keçirilməsi ilə bağlı daim çalışacağını bildiribdir.

### GÖYÇAY





9 fevral 2020-ci il tarixində keçiriləcək VI çağırış Milli Məclis seçkiləri ilə əlaqədar dünən YAP Mərkəzi Seçki Qərargahının Göyçay rayon şöbəsində seçki qanunvericiliyinə uyğun olaraq, Yeni Azərbaycan Partiyası tərəfindən 88 saylı Göyçay secki dairəsi üzrə namizədliyi irəli sürülmüş Hacıyeva Ləman Amil qızının və 89 saylı Göyçay-Ağdaş seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Şükürov Rəşad Əlibala oğlunun təşviqat kampaniyasına start verilib.

### BİLƏSUVAR





Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı dünən təbliğat-təşviqat kampaniyasına start verib. İlk olaraq, Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının fəallarından və təbliğat-təşviqat üzvlərindən təşkil olunmuş qruplar tərəfindən YAP tərəfindən namizədliyi irəli sürülmüş Səyalə Əhmədağa qızı Şahbazovanın seçki plakatları 66 saylı Biləsuvar Seçki Dairəsinin əhatə etdiyi Biləsuvar rayonu 44 saylı seçki məntəqəsinin ərazisində qurulmuş təşviqat lövhələrinə vurulub.

Tərtib olunmuş qrafikə uyğun olaraq, rayon seçiciləri ilə görüşlər keçiriləcəkdir.

### KƏLBƏCƏR





YAP Kəlbəcər rayon təşkilatı 9 fevral tarixində keçiriləcək parlament seçkiləri ilə bağlı partiya tərəfindən namizədliyi irəli sürülmüş Aqil Sadıq oğlu Məmmədovun təbliğat kampaniyasına start verib. İlk görüş dünən Gəncə şəhəri ADAU 6 ətrafmda məskunlaşmış seçicilərlə keçirilib. Görüşü namizədin səlahiyyətli nümayəndəsi, rayon təşkilatının aparat rəhbəri Qənaət Əsgərov, seçicilərdən Zahid Muxtarov, Mirzəli Məmmədov, Akif Bayramov və başqaları çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

### Binəqədi





YAP Binəqədi rayon təşkilatı tərəfindən partiyanın millət vəkilliyinə irəli sürülmüş namizədlərin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə ilk görüşü keçirilib.

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı tərəfindən 9 fevral 2020-ci il tarixdə ölkəmizdə keçiriləcək VI çağırış Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyasının 8 saylı Binəqədi birinci Seçki Dairəsi üzrə namizədi Əliyarlı Kubra Məhəmməd qızı, 9 saylı Binəqədi ikinci Seçki Dairəsi üzrə Qafarov Kamaləddin Nəsrəddin oğlu, 10 saylı Binəqədi üçüncü Seçki Dairəsi üzrə Əliyev Anar Məmməd oğlunun seçicilərlə ilk görüşü keçirilib. Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, hər 3 dairə seçki komissiyası üzrə seçicilər və partiyanın fəalları iştirak edirdilər.

Görüşü giriş sözü ilə açan Ramiz Göyüşov ölkəmizdə ən məsuliyyətli və ən əlamətdar günlər yaşanıldığını vurğulayıb. Bildirib ki, müstəqil bir ölkə kimi Azərbaycan özünün dinamik inkişafının növbəti mərhələsinə yeniləşən cəmiyyət, qüdrətli iqtisadiyyat və davamlı islahatlarla zəngin yeni parlamentli mərhələsinə qədəm qoyur. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən səmərəli daxili və xarici siyasət, iqtiasadi, siyasi, sosial və hüquqi islahatların şaxələndirilməsi nəticəsində Azərbaycan, nəinki regionun, bütövlükdə, dünyanın ən stabil inkişaf tempinə malik dövlətləri sırasında yer almaqdadır."

Daha sonra 9 saylı Binəqədi ikinci Seçki Dairəsi üzrə namizəd Qafarov Kamaləddin Nəsrəddin oğlu çıxış edərək, qeyd edib ki, ölkəmizdə və xüsusən də rayonumuzda mövcud olan problemlərin aradan qaldırılması, hər birimizdən məsuliyyət, sosial təəssübkeşlik, gələcək ümumi yüksəliş və rifah üçün milli canıyananlıq tələb edir: "Rayonumuzda öz həllini gözləyən məsələlər müvafiq dövlət qurumlarının, icra strukturlarının, idarə, müəssisə və təşkilatların, dövlət nümayəndələri ilə bərabər, həm də hər bir Binəqədi sakininin qayğı və probleminə çevrilməlidir. Bu da, mənim ən böyük amalımdır.

*Ardı Səh. 11*

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verdi*

Əvvəli-Səh-10

Görüşdə çıxış edən 8 saylı Binəqədi birinci Seçki Dairəsi üzrə namizəd Əliyarlı Kubra Məhəmməd qızı bildirib ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çoxsaylı iqtisadi, sosial və siyasi islahatlar həyata keçirilir, yeni infrastruktur layihələri icra olunur, əhalinin rifahının daha da yüksək səviyyədə təmin edilməsi, ictimai-siyasi sabitliyin davamlı və daha da möhkəm olması istiqamətində mühüm işlər görülür: “Lakin bizə məlumdur ki, Binəqədi rayonunda əhalini narahat edən, həllini gözləyən bir sıra məsələlər var. Seçkilərə hərtərəfli görüləcək işləri nəzərdə tutan geniş platforma ilə gedirik. Dövlətimizə, xalqımıza xidmət etməyi özümə şərəf bilirəm və bu yolda sizlərə fəxarətlə xidmət etmək də ən müqəddəs missiyalarımdan biri olacaq.” Çıxışının sonunda o bütün seçiciləri “Daha güclü Azərbaycan naminə” Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Daha sonra çıxış edən 10 saylı Binəqədi üçüncü Seçki Dairəsi üzrə namizəd Əliyev Anar Məmməd oğlu bildirib ki, ona göstərilən bu etimad, onu daha məsuliyyətli olmağa sövq edir. Bu məsuliyyətli və çətin yolda ona göstərilən etimadı doğrultmaq üçün daha səylə çalışacağına əminliyini ifadə edib.

Görüşdə çıxış edən seçicilərdən Rahib Abbasov və başqaları namizədlərin hər birinə uğurlar arzulayıblar. Seçiciləri YAP-ın layiqli namizədlərinə səs verməyə çağırıblar.

Görüşün sonunda seçicilər onları maraqlandıran sualları namizədlərə ünvanlayıblar. Sonda xatirə şəkli çəkdirilib.

## ZƏRDAB





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsi, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 9 fevral 2020-ci ildə keçiriləcək parlament seçkilərinin təbliğat-təşviqat kampaniyasına start verib.

Təbliğat kampaniyasına “Daha güclü Azərbaycan naminə” devizi altında plakatların təbliğat lövhələrində asılması ilə başlanılıb. Təşviqat qurupunun üzvləri və gənc YAP üzvləri kampaniyanı böyük ruh yüksəkliyi və coşqu ilə başa çatdırıblar.



## SURAXANI





Yanvarın 17-də 30 saylı Suraxanı I Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Fətəliyeva Sevinc Həbib qızının Hövsan seçiciləri ilə təbliğat - təşviqat kampaniyası çərçivəsində ilk görüşü keçirildi. Qeyd edək ki, namizədlə görüşdə 170 nəfər Hövsan qəsəbəsi 14 və 15-ci məhəllənin sakinləri olan seçicilər iştirak etmişdir. Görüşü giriş sözü ilə Yeni Azərbaycan Partiyasının Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov açdı.

Daha sonra deputatlığa namizəd Sevinc Fətəliyeva Milli Məclisin deputatı kimi ötən doqquz illik fəaliyyəti və qarşıda duran vəzifələr haqqında seçiciləri məlumatlandırdı.

Görüşdə iştirak edən qəsəbə sakinlərindən Məmmədov Rəşid, Əliyev Şaiq, Məmmədli Güllü, Kəlpi İsgəndərov, Mircəfərova Tamilla və Heydərli Məzahir parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildirmiş və namizədə uğurlar diləmişlər.

Görüşdən sonra Sevinc Fətəliyeva Hövsan qəsəbəsində yerləşən seçki qərargahında seçiciləri qəbul etmişdir.

## İSMAYILLI



Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi 9 fevral 2020-ci il tarixdə keçiriləcək parlament seçkilərinə “Daha güclü Azərbaycan naminə” devizi altında təbliğat-təşviqat kampaniyasına start verərək, namizədliyi partiya tərəfindən irəli sürülmüş Muradov Zaur Fazil oğlunun seçki plakatlarını, Seçki Məcəlləsinin tələblərinə uyğun müəyyənləşdirilmiş müvafiq surətdə, ərazilərdəki lövhələrə yapışdırmaq prosesini başa vurmuşdur. YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsi tərəfindən təbliğat-təşviqat işlərinin yüksək səviyyədə təşkili üçün bütün seçki prosedurları uğurla davam etdirilir.

Rayon təşkilatı əmindir ki, əvvəlki illərdə olduğu kimi, bu seçkilər də yüksək səviyyədə, Azərbaycan Respublikasının Konstitusiyasının tələblərinə, Seçki Məcəlləsinə və onun təlimatlarına uyğun keçiriləcəkdir.

## BİNƏQƏDİ

YAP Binəqədi rayon təşkilatı tərəfindən Yeni Azərbaycan Partiyasının millət vəkilliyinə irəli sürülmüş namizədlərinin təbliğat-təşviqat kampaniyasına start verildi.



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı tərəfindən 9 fevral 2020-ci il tarixdə ölkəmizdə keçiriləcək VI çağırış Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərin təbliğat-təşviqat kampaniyasına start verildi. Kampaniya çərçivəsində partiyanın millət vəkilliyinə vahid namizədləri 8 saylı Binəqədi birinci Seçki Dairəsi üzrə Kubra Əliyarlı, 9 saylı Binəqədi ikinci Seçki Dairəsi üzrə Kamaləddin Qafarov, 10 saylı Binəqədi üçüncü Seçki Dairəsi üzrə Anar Əliyev üzərində Yeni Azərbaycan Partiyası “Daha güclü Azərbaycan naminə” şüarı yazılan təbliğat plakatları müvafiq məntəqə seçki komissiyalarının təbliğat lövhələrinə yerləşdirildi. Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının gənc fəalları və könüllülərinin iştirakı ilə təbliğat-təşviqat kampaniyası yüksək səviyyədə və mütəşəkkil başlanıldı.

## Quba





Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatı tərəfindən 9 fevral 2020-ci il tarixdə keçiriləcək parlament seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasından namizədliyi irəli sürülmüş 52 saylı Quba seçki dairəsi üzrə Aysel Şeydayeva Balasultan qızının, 53 saylı Quba -Qusar seçki dairəsi üzrə Habil Bayramlı Laşın oğlunun təbliğat-təşviqat kampaniyasına uğurla start verildi. Bu kampaniya 52 saylı Quba, 53 saylı Quba-Qusar seçki dairəsinin məntəqələri üzrə uğurla davam etdirilir. Namizədlərin şəkli əks olunmuş plakatları Seçki Məntəqəsinin ərazisində qurulmuş təşviqat lövhələrinə vuruldu. Bu kampaniya rayon ərazisində səhər saatlarında uğurla başa çatdı.

*Ardı Səh. 12*

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

## *Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verdi*

Əvvəli-Səh-11

### AĞDAŞ





90 saylı Ağdaş Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cavid Osmanovun təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon təşkilatının konfrans zalında Ağdaş şəhər seçiciləri ilə ilk görüşü keçirilmişdir. Görüşü Təbliğat Qrupunun üzvü, Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatı qadınlar şurasının sədri Tənzilə Şıxıyeva açaraq, parlament seçkiləri haqqında və bu müddət ərzində, həyata keçirilmiş proseslərdən, eləcə də, Cavid Osmanovun Milli Məclisin deputatı olduğu ötən dövr ərzində göstərdiyi fəaliyyətdən söz açdı.

Cavid Osmanov ölkə Prezidenti İlham Əliyevin respublikamızda həyata keçirdiyi uğurlu daxili və xarici siyasətdən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanda təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın inkişafı, ölkəmizlə bağlı həqiqətlərin dünyada təbliği, xalqımızın maddi-mənəvi dəyərlərinin yenidən dirçəldilməsi, onların qorunub-saxlanılması, dünya xalqlarının mədəniyyətlərinə inteqrasiyası istiqamətində gördüyü işlərlərdən danışdı. C.Osmanov, həmçinin, millət vəkili olduğu müddətdə Ağdaş rayonunda yaşayış məntəqələrin qazlaşdırılması, kənd yollarının yenidən qurulması, şəhərin daxili küçələrinin təmir edilməsi və sair kimi məsələlərin həlli istiqamətində görülmüş işlərə toxunaraq, qeyd etdi ki, rayonun inkişafı üçün bundan sonra da, davamlı olaraq, əməli işlər görüləcəkdir.

Görüşdə ilk dəfə səs verəcək seçici Tənzilə İsgəndərova, seçicilərdən Zülfiyyə Soltanova, İlqarə Rüstəmova, Mais Məhərrəmov və Xəyalə Rüstəmova çıxış edərək qeyd etdilər ki, ölkəmizdə və rayonumuz Ağdaşda görülən işlər, həyata keçirilən layihələr hər bir vətəndaşın gözü önündə baş verir.

Çıxış edən seçicilər 9 fevralda keçiriləcək parlament seçkilərində, Yeni Azərbaycan Partiyasının namizədi olaraq, Cavid Osmanova səs verəcəklərini bildirdilər.

Sonda C.Osmanov seçiciləri maraqlandıran suallara ətraflı cavablar verdi.

### AĞDAŞ

9 fevral 2020-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsi, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, seçkinin təbliğat-təşviqat kampaniyasına start verdi. İlk olaraq, partiyanın rayon təşkilatının gənclər birliyinin fəallarından təşkil olunmuş qruplar tərəfindən namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürül-



müş və Dairə Seçki Komissiyası tərəfindən qeydə alınmış Cavid Osmanovun şəkli əks olunmuş plakatları 90 saylı Ağdaş Seçki Dairəsinin əhatə etdiyi 40 seçki məntəqəsinin ərazisində qurulmuş təşviqat lövhələrinə vuruldu. Bu kampaniya rayon ərazisində səhər saatlarında uğurla başa çatdı.

### Nəsimi





Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının və Mənzil İnşaatı Dövlət Agentliyinin birgə təşkilatçılığı 20 Yanvar faciəsinin 30 illiyi ilə əlaqədar rayon ərazisində yaşayan 20 Yanvar şəhid ailələri və əlilləri ilə görüş keçirildi. Görüş iştirakçıları şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Tədbiri YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı açaraq, bu il xalqımızın öz azadlığı və müstəqilliyi uğrunda mübarizəsinin şanlı səhifəsi olan 20 Yanvar faciəsinin 30 illiyinin qeyd edildiyini bildirib. Qeyd etdi ki, 1990-cı ilin 20 yanvarında keçmiş SSRİ rəhbərliyinin tapşırığı və ermənipərəst Sovet ordusu ölkəmizdə öz istiqlaliyyəti uğrunda mübarizə aparan mülki və dinc insanlara qarşı amansızcasına cinayət hadisəsi törətmişdir. Buna baxmayaraq əli silahsız, amma vətənpərvər soydaşlarımız Bakıya yeridilmiş qoşunun qarşısında çəkilməmişdir. Bu il Azərbaycan xalqının qan yaddaşına əbədi yazılan bu qəhrəmanlıq tarixinin 30-cu ildönümüdür və bu münasibətlə Prezidentimiz İlham Əliyev tərəfindən Sərəncam imzalanmışdır. Bu Sərəncamdan irəli gələrək, hazırda ölkəmizdə və onun hüdudlarından kənarda xalqımızın əzmkarlıqla apardığı azadlıq mücadiləsinin 30 illiyinə həsr olunmuş tədbirlər planı həyata keçirilir. Bu görüşün məqsədi çağdaş müstəqilliyimizin qazanılmasında qəhrəmanlıq tariximiz olan 20 Yanvarın xüsusi rolunun və əhəmiyyətinin bir daha gənc nəsillərə çatdırılmasıdır.

Tədbirdə YAP Nəsimi rayon təşkilatının Mənzil İnşaatı Dövlət Agentliyi üzrə ərazi ilk təşkilatının sədri və agentliyin aparat rəhbəri Fərman Qurbanlı çıxış edərək o illərdəki olayları diqqətə çəkərək, Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizəni vurğulayıb. Qeyd edib ki, 1990-cı il hadisəsi nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli qürurunu və əzmini qıra bilmədi. 1990-cı ilin 20 Yanvar günü şəhidlərimiz öz qanları ilə Azərbaycanın yeni tarixini yazdılar.

Görüşdə çıxış edən 20 Yanvar əlilləri və şəhid ailələri həmin tarixin milli matəm və hüzn günü kimi qeyd olunsa da, iftixar hissi ilə xatırlandığını bildirdilər. Qeyd olundu ki, həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə qüdrətini bütün dünyaya bəyan etdi. Çıxış edənlər onlara dövlətimiz tərəfindən göstərilən diqqət və qayğıdan da danışdıılar. Sonra 20 Yanvar əlillərinə və şəhid ailəsinə ərzaq bağlamaları paylanıldı.

### Yasamal





Dünən 17 saylı Yasamal 3-cü seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Elnur Allahverdiyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yasamal rayonu seçiciləri ilə görüşü keçirildi.

Görüşü giriş sözü ilə YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov açaraq, rayon təşkilatının ölkədə keçirilən bütün seçkilərdə həmişə fəallığı ilə seçildiyini bildirdi: "9 fevral tarixində keçiriləcək parlament seçkilərinə layiqli namizədlərlə gedirik. Seçicilərin YAP namizədlərinin təbliğat-təşviqatında ilk gündən fəallığı göstərir ki, biz bu seçkidə də mütləq səs çoxluğu ilə qələbə qazanacağıq."

T.Əhmədov E.Allahverdiyev haqqında seçicilərə ətraflı məlumat verərək, qeyd etdi ki, o, çox işgüzar, təşəbbüskar bir insandır və hər cəhətdən deputatlığa layiq olan ziyalıdır. Onun, həqiqətən də, seçilməyə və Azərbaycanı təmsil etməyə layiq bir ziyalı olduğunu bildirən natiq seçiciləri YAP tərfəindən namizədliyi irəli sürülmüş E.Allahverdiyevə səs verməyə və demokratiyanın və müstəqilliymizin bizə verdiyi imkandan yararlanaraq düzgün seçim etməyə çağırdı.

Görüşdə Elnur Allahverdiyev çıxış edərək, Azərbaycanın dinamik inkişafını diqqətə çəkərək, həyata keçirilən islahatlara nəzər saldı. Sonra o, seçicilərə müəyyənləşdirdiyi hədəflər ətrafında məlumat verdi və seçiciləri ona səs verməyə çağırdı. Görüşün sonunda seçicilərdən Şükufə Xankişiyeva, Maya Əhmədli və başqaları çıxış edərək, 9 fevral tarixində parlament seçkilərində hamılıqla məntəqələrə gedərək, YAP-ın deputatlığa namizədinə səs verəcəklərini bildirdilər. Görüşün sonunda seçiciləri maraqlandıran suallar cavablandırıldı.

***Nəzakət ƏLƏDDİNQIZI***
***RƏFİQƏ HÜSEYNOVA***
***ZÜMRÜD BAYRAMOVA***

# Əsmər Əliyeva: "Şirvanlıların adına layiq millət vəkili olacağam"







9 fevral 2020-ci il tarixində Azərbaycanda keçiriləcək növbəti parlament seçkilərində 46 saylı Şirvan şəhər dairə seçki komissiyası tərəfindən deputatlığa namizədliyi qeydə alınmış Əsmər Əlimusa qızı Əliyevanın dünən təbliğat-təşviqat kampaniyasına start verilib. Deputatlığa namizəd Əsmər Əliyeva qərargah üzvləri, vəkilləri ilə birgə ilk öncə Ümummilli liderimiz Heydər Əliyevin Şirvan şəhərinin mərkəzində ucaldılmış möhtəşəm abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək xatirəsini yad edib, hörmət və ehtiramını bildirib.

Deputatlığa namizəd Əsmər Əliyeva Ulu Öndər Heydər Əliyevin abidəsi önündə ilk açıqlamasını verib. Şirvanlı seçicilərə xitabən bildirib ki, məni millət vəkili olmağa həvəsləndirən möhtərəm Prezidentimiz İlham Əliyevin son kadr və siyasi islahatları, eyni zamanda gənclərin dövlət idarəçiliyində önə çəkilməsi və parlament seçkilərində gənclərin fəal iştirak etməsinə çağırışı səbəb oldu: "Mən dövlətimiz, xalqımız, şirvanlılar adına layiqli millət vəkili olacağıma hər kəsi əmin edirəm".

Ə.Əliyeva sonra Şirvan şəhərindəki Şəhidlər Xiyabanına gələrək Vətən uğurunda canından keçmiş şirvanlı şəhidlərin xatirələrinə ehtiramını bildirərək məzarları üzərinə qərənfillər düzüb. Deputatlığa namizəd Şəhidlər Xiyabanını ziyarətə gəlmiş körpə balalarla görüşüb, müəllimələrinə uşaqları vətənpərvərlik ruhunda tərbiyyə etdikləri üçün minnətdarlığını bildirib. Əsmər Əliyeva daha sonra ərazi bütövlüyümüz uğurunda şəhid olmuş Azad Səttarovun ailəsinə baş çəkib. Şəhid ailəsinə baş sağlığı verərək bildirib ki, biz gənclərin borcu sizin kimi qəhrəman övladlar dünyaya gətirib vətən uğurunda qurban verən analara baş çəkmək və xeyir duanızı almaqdır: "Azərbaycan xalqının dahi rəhbəri, Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun varisi və layiqli davamçısı cənab Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, Qarabağ əlillərinə və bu kateqoriyadan olan insanlara göstərdikləri diqqət və qayğı biz gənclər üçün bir nümunədir. Biz bu yolla gedib cənab Prezidentimizə və Birinci vitse-prezidentimizə dəstək olub öz töhfələrimizi verəcəyik".

Şəhid anası öz növbəsində Əsmər Əliyevaya xeyir-dua verərək bildirib ki, bir şəhid anası kimi daim bizlərə diqqət və qayğı göstərən cənab Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm: "Sizə də seçkilərdə uğurlar arzulayır, Allahdan işinizi avand etməsini diləyirəm. Dövlətimiz, xalqımız üçün bu seçkilər düşərli və uğurlu olsun".

***İqbal Mikayılov***

# BSU-da payız semestrinin imtahan sessiyası ilə bağlı mediatur keçirilib



*Dünən Bakı Slavyan Universitetində 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyası ilə bağlı mediatur keçirilib. Mediatur iştirakçıları ilə görüşən BSU-nun rektoru, professor Nurlana Əliyeva qeyd edib ki, "Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir!" deyən Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev insan kapitalının inkişafına, insan potensialının ön plana çıxarılmasına böyük diqqət və qayğı göstərir.*

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva elm və təhsilin inkişafına misilsiz töhfələr verir. BSU-nun kollektivi bu diqqət və qayğıdan ruhlanaraq daha əzmlə, daha məsuliyyətlə fəaliyyət göstərir. Çıxışına davam edən rektor media nümayəndələrinə BSU-da həyata keçirilən mədəni-kütləvi tədbirlər, respublika və beynəlxalq miqyaslı elmi konfranslar, tədris və imtahan prosesinin səmərəli təşkili, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, maddi-texniki bazanın gücləndirilməsi, insan resurslarının inkişaf etidirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, ikili diplomların tətbiqi ilə bağlı xarici universitetlərlə aparılan iş, eləcə də, imtahan sessiyasına hazırlıq barədə geniş məlumat verib. İmtahan sessiyasının şəffaf və obyektiv, qanun çərçivəsində keçirilməsi üçün fakültə dekanları, kafedra müdirləri və digər müvafiq struktur bölmə rəhbərləri qarşısında konkret vəzifələr qoyulduğunu bildirib.



Tədris işləri üzrə prorektor, professor Telman Cəfərov media təmsilçilərinin imtahan prosesi ilə bağlı suallarını cavablandırıb. Sonra mediatur iştirakçıları İmtahan Qərargahının və Apellyasiya Komissiyasının fəaliyyəti ilə tanış olublar. Mediatur iştirakçıları imtahanlar keçirilən auditoriyalarda olaraq, imtahanların gedişini izləyiblər. Onlar burada kameraların və "ağıllı lövhələr"in də iş prinsipləri ilə tanış olublar. Mediatur iştirakçıları ilə söhbət zamanı tələbə-gənclər şəffaf və obyektiv imtahan mühitinin yaradılmasından razı qaldıqlarını bildiriblər.

***Zümrüd BAYRAMOVA***

# Dövlət Sərhəd Xidmətində 20 Yanvar faciəsi ilə bağlı silsilə tədbirlər davam etdirilir





Dövlət Sərhəd Xidmətində (DSX) Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi yaddaşlara həkk olunan 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı silsilə tədbirlər davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Sərhəd Xidmətinin aparatında, struktur qurumlarında və hərbi hissələrində Qanlı Yanvar hadisəsinə həsr edilmiş tədbirlərdə Vətənimizin azadlığı, müstəqilliyi yolunda canlarını fəda etmiş və xalqımızın qürur mənbəyinə çevrilmiş şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirlərdə çıxış edən sərhədçilər, Milli Məclisin deputatları, elm xadimləri, ictimaiyyətin nümayəndələri xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələri barədə ətraflı məlumat verib, SSRİ rəhbərliyinin göstərişi ilə törədilmiş dəhşətli cinayətin Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəmini qıra bilməməsi, əksinə milli azadlıq mübarizəsini daha da gücləndirilməsini qeyd ediblər. Qanlı faciədən dərhal sonra ulu öndər Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanat verməsi, təcavüzə kəskin etiraz bildirməsi, qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdirməsi xüsusi vurğulanıb.

Qanlı Yanvar hadisələrinə dövlət səviyyəsində əsl siyasi-hüquqi qiymətin yalnız ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra verilməsi qeyd edilib. Ulu Öndər 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutaraq onların adlarının əbədiləşdirilməsi ilə bağlı bir sıra fərman və sərəncamlar imzalayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ölkəmizin azadlığı, suverenliyi uğrunda həlak olanların xatirəsinə böyük ehtiramın göstərilməsi, şəhidlərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi və onlara dövlət qayğısının daha da artırılması məqsədilə mühüm qərarların qəbul olunması barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Dövlət Sərhəd Xidmətinin aparatında keçirilmiş tədbirdə "Şəhidlər xiyabanı" adlı kompozisiya proqramı ilə DSX Xüsusi Məktəbinin kursantları çıxış ediblər. Tədbirlərdə 20 Yanvar faciəsinə dair sənədli filmlər nümayiş etdirilib.

***Təkcə erməni lobbisi deyil, həmçinin, dünyada ermənipərəst qüvvələrin olduğu günümüzün reallığıdır. Bu qüvvələrin fəaliyyəti də yalnız ermənilərin mənafelərinin ədalətsizcəsinə müdafiəsindən ibarətdir. Hətta çox təəssüf ki, bir sıra beynəlxalq təşkilatlar arasında da bəzilərinin ermənipərəst mövqe nümayiş etdirildiyinin, ikili standartlar tətbiq edildiyinin, dünya ictimaiyyəti çoxdandır ki, şahididir. Yenə də təəssüflə bildiririk ki, “Human Rights Watch” kimi bir təşkilat da, məhz beləcə ikili srandartlar tətbiq edərək fəaliyyət göstərir və özünün ermənipərəst mövqeyi ilə digərlərindən, hətta kəskin şəkildə seçilir.***




# “Human Rights Watch” erməni təşkilatı rolunda

Əslində, adından da göründüyü kimi, humanizm prinsiplərini rəhbər tutmalı, tərəfsiz mövqe sərgiləməli, həqiqətən də, humanizmi tərənnüm etməli olan bir təşkilatın belə ədalətsiz yanaşması həm təəccüb doğurur, həm də təəssüf hissi yaradır. Çünki Azərbaycan torpaqlarını zəbt edərək, az qala əsrin üçdə birinə yaxın müddətdə, qəsbkarlıq siyasətini davam etdirən, soyqırımlar törədən, Xocalı kimi insanlıq dramına imza atan, insanları bu müddət ərzində, yurd-yuvalarından didərgin salan və insanlığa sığmayan daha hansı əməllər törədən bir toplumu-erməniləri müdafiə etmək heç bir beynəlxalq təşkilatın işinə, fəaliyyətinə uyğun deyil və hətta nizamnamələrinə də tamamilə ziddir.

Maraqlıdır, niyə bu təşkilat, yəni “Human Rights Watch” kimi bir beynəlxalq qurum ermənilərin mənafelərini qoruyaraq ədalətsizlik nümayiş etdirir, ikili yanaşma tətbiq edir? Axı bu erməni sevgisi bu təşkilatda hardan əmələ gəlib, deyə düşündükdə, sözügedən təşkilatın Yaxın Şərq və Şimali Afrikadakı icraçı direktoru Sarah Lee Witsonu yada salmamaq mümkün deyil. Onun bu vaxta qədərki fəaliyyəti, ermənipərəst mövqeyi bir tərəfə, hətta erməni əsilli olduğu da diqqəti cəlb edir. Sarah Lee Witson öz müsahibələrində, bunu ondan soruşmasalar belə, nəinki erməni sevgisini, hətta erməni əsilli olduğunu da özü etiraf edir. Dəfələrlə Ermənistanda olduğunu, hətta qızını da apardığını gizlətmir. Onu da gizlətmir və etiraf edir ki, istəyi özü kimi övladında da erməni sevgisini oyatmaqdır.

“Human Rights Watch” kimi bir beynəlxalq qurumun Yaxın Şərq və Şimali Afrikadakı icraçı direktoru, mənim üçün ən vacibi ermənilərin mənafelərini nəzərə almaqdır, deməklə də, öz mövqeyini açıq-aşkar söyləməkdən çəkinmir. Ermənilərin arxasında dayanmaq istəyirəm, fikri də Sarah Lee Witsona məxsusdur. Əbəs yerə deyil ki, sözügedən təşkilatın icraçı direktoru ermənilərə dəstək verilməsini istəyir. O, Suriyada günü-gündən qızışan müharibə kontekstində, Suriya-Ermənistan cəmiyyətinə təcili dəstək göstərilməsini tələb edir, yardım səylərini alqışlayır. Hətta, o bu müddət ərzində, suriyalı məcburi köçkünlərə, habelə, Ermənistana köçənlərə dəstək olmaqdan qürur duyduğunu da söyləyib. Erməni icmasının, Ermənistan hökumətinin və Ermənistan nümayəndələrinin Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının iclasında erməni qaçqınların ehtiyaclarının masaya qoyulmasının vacibliyini də vurğulayıb.

Sarah Lee Witson erməni məktəbinə getdiyini deyir. Deyir ki, qondarma “erməni soyqırımı” onun heç zaman fikrindən çıxmayıb. Bu qondarma, dırnaqarası soyqırımı barədə qondarma erməni yazarlarının da yazılarını oxuduğunu, “erməni işi” dedikləri məsələlərə diqqət ayırdığını da gizlətmir. Ermənilərin təhsilli olmalırını, faktları yaxşı bilmələrini arzuladığını bildirən bu qondarma, dırnaqarası humanizm carçısı erməniləri açıq şəkildə müdafiə edir və bunu etiraf etməyi də özünə borc bilir.

Məqsəd bu ermənipərəst icraçı katibin tərcümeyi-halını çatdırmaq deyil və onun kimliyi müzakirə mövzusu ola da bilməz. Məsələnin kökündə nələrin dayandığını aydınlaşdırmaq üçün, sadəcə, onun kimliyi də yetərlidir. Çünki, o, bir ermənidir və bir erməni kimi haqqın, ədaətin, humanizmin deyil, haqsız olduqları halda, ermənilərin arxasında dayandığı ifşa olunur. Bir növ, bu, onun elə erməni xislətindən də irəli gəlir və bunu özü də etiraf edir ki, ermənilərin arxasında dayanmağı özünə borc bilir.

Halbuki humanizmin qoruyucusu kimi özünü təqdim edən bir təşkilatın icraçı katibi olaraq, onun ən başlıca vəzifəsi, ən əsas borcu haqsız, vəhşi, terrorçu və ekstremist ermənini deyil, insanlığı müdafiə etmək, haqları tapdalanan, yurd-yuvalarından didərgin salınan insanlara humanizm nümayiş etdirməkdir.

Erməni əsilli, ermənipərəst Sarah Lee Witsonun kimliyi, qondarma fəaliyyəti, ədalətsiz mövqeyi bir yana, bəs nəyə görə “Human Rights Watch” kimi bir təşkilat da beləcə ikili standart yanaşma tətbiq edir? Nəyə görə humanizmi təbliğ edən, humanizm və insanlıq prinsplərini rəhbər tutan bir təşkilat, insanlığa sığmayan əməllər və terror törədən bir toplumu müdafiə edir? Bu yekəlikdə bir təşkilatı, beynəlxalq qurumu bir erməni əsilli qadın idarə edir, yoxsa həmin təşkilat özü bu qadının ideyalarına və çürük əqidəsinə qul kimi xidmət edir? “Human Rights Watch” erməni təşkilatı rolunda niyə çıxış edir?

Hər bir halda bu suallar və faktlar, həmin təşkilatın, yəni “Human Rights Watch” kimi bir beynəlxalq qurumun imicinə zərbədir. Hər bir halda, insanlığın müdafiəsi əvəzinə, insanlıq dramı törədənləri müdafiə edən təşkilatın nüfuzundan söhbət belə gedə bilməz. Qurum öz nüfuzunu bir növ olmayan haqlarını tələb edən ermənilərin ayaqları altına ataraq, onlara çoxdan qurban verib.

Ən yaxın zamanda Sarah Lee Witson, nəinki icraçı katib, heç bu təşkilatın üzvü də olmaya bilər, amma “Human Rights Watch” kimi bir beynəlxalq qurum bir insanın ambisiyalarına, qərəzli münasibətinə alət olduğuna görə öz nüfuzunu, çətin ki, bərpa edə bilə. Ümumiyyətlə, yaxın gələcəkdə bu kimi dırnaqarası beynəlxalq təşkilatların özlərinin beynəlxalq miqyasda müzakirə obyekti olacağı da gözlənilləndir. Yəqin ki, Fransanın keçmiş prezidenti Sarkozinin BMT kimi bir təşkilata ünvanladığı ittihamlar artıq dünya ictimaiyyəti üçün də sirr deyil və indi beynəlxalq ictimaiyyətin daha müasir və daha ədalətli və humanist təşkilatlara ehtiyac duyduğu günün reallığıdır. Fransanın keçmiş prezidenti öz ittihamlarında BMT kimi bir mötəbər təşkilatın, beynəlxalq qurumun tərkibində Afrika ölkələrinin, Cənubi Amerika ölkələrinin, Hindistanın, hətta Yaponiyanın da olmamasını irad tutduğu kimi, “Human Rights Watch” kimi təşkilatların da qarşısında ikili standartlar tətbiq etdikləri, humanizmi deyil, terrorçuları müdafiə etdikləri fakt olaraq qoyulacağı gün uzaqda deyil. Çünki bu təşkilatlar, bu ermənipərəst qurumlar haqqın, humanizmin yanında olmamaqla, öz nüfuzlarını özləri heçə endirməklə müqəddəratlarını özləri təyin ediblər. Bu müqəddəratın isə sıradan çıxmaq olduğunu özləri hamıdan daha yaxşı başa düşürlər, çünki, bu, artıq günün reallığıdır.

***İnam***

# Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsidir



**Məktəblilər Şəhidlər Xiyabanını ziyarət ediblər**

Bu günlər ölkəmizin hər yerində tariximizin şərəf və qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsinin qurbanları olan şəhidlərimizi yad etmək üçün anım tədbirləri keçirir, onların uyuduqları xiyabanları ziyarət edirlər. Dünən də, Bakının 7 saylı Məmməd Rahim adına məktəbin 2-ci sinif şagirdləri 20 Yanvar Faciəsi ilə bağlı Şəhidlər Xiyabanını ziyarət ediblər. Sinif rəhbəri Nigar Hacızadə ziyarət əsnasında şagirdlərə o müdhiş, ağır günlərdən, o zamankı SSRİ rəhbərlərinin əmri ilə ordunun Bakıda törətdiyi qırğınlardan danışıb. Bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində müstəqil dövlət yaratmaq və öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədib: “Bu qanlı cinayət insanların azadlıq eşqini söndürə bilməyib, xalqımız qanı bahasına da olsa, öz dövlət müstəqilliyinə qovuşub. 30 il əvvəl Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır”.

Nigar Hacızadə şagirdlərə, bir daha məlumat verib ki, 20 yanvar hadisələri zamanı 147 Azərbaycan vətəndaşı şəhid olub, 638 nəfər yaralanıb və xəsarət alıb, 841 nəfər qanunsuz olaraq həbs edilib, nəticədə, insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozulub: “Bakıdakı 20 Yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ümummilli Lider Heydər Əliyev keçirdiyi mətbuat konfransında bu vəhşiliyi kəskin şəkildə pisləyib, əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya və insanlığa zidd aksiya adlandırıb. Hələ Sovet imperiyasının mövcud olduğu bir dövrdə Ulu Öndərin bu cür bəyanatla çıxış etməsi, bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahi şəxsiyyətlər atırlar. Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsidir. Ulu Öndər Heydər Əliyev 1990-cı ilin 20 Yanvar gecəsi, məhz belə bir zirvəni fəth edib əbədiyaşarlıq hüququ qazanan Vətən oğullarının fədakarlığını yüksək qiymətləndirərək deyib: “20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnəkdir. Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar”.

***RÖVŞƏN***

## “Nar” 4,5G baza stansiyalarının sayını 60% artırıb

Əhalini yüksəkkeyfiyyətli və sürətli şəbəkə ilə təmin etməyi hədəfləyən “Nar”, 2019-cu ildə şəbəkə tutumunun genişləndirilməsi istiqamətində görülən işlərlə bağlı hesabatını açıqlayıb. Belə ki, mobil operator ötən il ərzində 1055-dən artıq 4G/4,5G texnologiyalı baza stansiyası quraşdırıb. Bununla da “Nar” 4G/4,5G texnologiyalı baza stansiyalarının sayını 60%-dən çox artıraraq, 2779-a çatdırıb. Mobil operator ötən il ərzində 230-dan çox 3G texnologiyalı baza stansiyası quraşdırıb və hazırda 3G texnologiyalı baza stansiyalarının sayı 2854 olub.

“Nar” 2019-cu il ərzində 4G/4,5G baza stansiyalarının coğrafi əhatə dairəsini 245%, ölkə əhalisi üzrə əhatə dairəsini isə 80% artırmağa nail olub. Hazırda “Nar” 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

***Liviyada uzun müddətdir davam edən müharibəni heç cür dayandırmaq mümkün olmur. Moskvadakı danışıqlarda üsyançı Liviya Milli Ordusunun rəhbəri Xəlifə Haftar Baş nazir Faiz Sarajın rəhbərliyi ilə, hətta beynəlxalq səviyyədə tanınan bir hökumətlə atəşkəs müqaviləsi bağlamaqdan imtina da edir. O, əslində, müharibəni dayandırmaq üçün beynəlxalq vasitəçilərin uzunmüddətli cəhdlərinə də məhəl qoymur və qoşunların paytaxt Tripoliyə hücumlarını davam etdirir. Dünya birliyinin, illərdir ki, müharibə edən tərəfləri barışdıra bilmədiyi, Rusiya və Türkiyənin niyə bu prosesə qoşulduğu və nəhayət, ölkədə sülhün bərqərar olması üçün nələrin baş verəcəyi, həqiqətən də, düşündürücü məqamlardır.***

# Afrikalıların ehtiraslarının və ambisiyalarının cəhənnəmi





### Əbədi müharibə qorxusu

Müəmmər Qəddafi rejiminin devrilməsindən, daha dəqiq desək, 2011-ci ildən bəri Liviya parçalanmaqda davam edir və hərcmərcilik bu ölkə üçün xarakterik hal alıb. Suiqəsddən bir qədər sonra ölkədə vətəndaş müharibəsi başladığı sirr deyil. O dövrdə Liviyada yüksək ömür uzunluğu və aşağı inflyasiya olduğu qəbul edilirdisə, indi bunun belə olmadığı fakta çevrilir. Cəmiyyətdə qəbilə sistemini tanıyan insanlar çox idi, lakin qarşıdurmalar ciddi hakimiyyət böhranı fonunda başladı. Doğrudur, Qəddafi öz hakimiyyəti dövründə müxalifət qəbilələrini hakimiyyətdən məhrum etməyə, sıralarından uzaqlaşdırmağa çox çalışdısa da, görünür, buna nail ola bilmədi. Liviyada onların sayı, təxminən, 140 nəfər idi və belə məlum olur ki, onlardan ən azı 30 nəfər, nüfuzlarını qoruya bildilər. Liderin devrilməsi ilə yenidən hakimiyyət uğrunda mübarizə aparmaq üçün bir növ yeni bir fürsət yarandı.

Belə bir mübaizədə-vətəndaş müharibəsində, 1969-cu ildə kral hakimiyyətinin devrilməsində iştirak edən, Qəddafi tərəfində olan təcrübəli hərbçi Xəlifə Haftar özünü ən qabarıq şəkildə göstərdi. O, uzun müddət, daha dəqiq desək, müharibənin davam etdiyi Çada da 1987-ci ildə əsir düşənə qədər baş nazirin yaxın adamlarından olub. Liviya hərbi qüvvələrinin qonşu ölkədəki vəziyyətə müdaxiləsindən sonra hərbçi keçmiş müttəfiqindən üz döndərərək, ABŞ-a qaçıb, orada yaşayıb və 2011-ci ildə yenidən ölkəyə qayıdıb.

Vətəndaş müharibəsinin başlaması ilə, general özünü üsyançıların baş komandiri elan etməyə bir neçə dəfə cəhd etsə də, əvvəlcə uğursuzluqla qarşılaşıb. Sonralar ölkənin şərqində etibar qazanaraq, burada 2014-cü ildə "azadlıq əməliyyatı" həyata keçirməyə başlayıb. Tədricən, Liviyanın bir hissəsini, həmçinin, parlamenti ələ keçirib, özünə tərəfdarlar cəlb edib. İndi Haftar tərəfində olan qüvvələrin paytaxtı Tobruk şəhəridir. Nümayəndələr Palatası orada oturur və müvəqqəti hökumət fəaliyyət göstərir. Ölkənin qərbi, Faiz Sarajın hakimiyyəti beynəlxalq səviyyədə tanınsa da, Liviyanın rəsmi paytaxtı Tripolidir.

Dünya birliyi dəfələrlə "barışığı" təmin etməyə və bölünmüş Liviyanı yenidən birləşdirməyə çalışdı. Onların bundan əvvəl son görüşü 2017-ci ilin iyulunda Parisdə Fransa Prezidenti Emmanuel Makron və BMT-nin Liviya üzrə xüsusi nümayəndəsi Hasan Salamenin vasitəçiliyi ilə baş tutdu. Sonra tərəflər atəşkəs rejiminin yaradılması və 2018-ci ilin yazında milli seçkilərin keçirilməsi barədə razılığa gəldilər. Ancaq "barışıq" yalnız Saraj və Haftarın Parisdə olduğu müddətə qədər davam etdi. Haftarın ambisiyaları özünü çox gözlətmədi və o, 2019-cu ilin aprel ayında Tripoliyə hücum elan etdi. Vəziyyət qızışmağa başladı və dünya yenidən iki lideri danışıqlar masasına oturdulmasını vacib hesab etdi. Çünki təkcə region ölkələri deyil, ümumilikdə, bütün dünya ölkələri münaqişənin sonsuzluğa qədər davam edəcəyindən ehtiyat edir. Dünya ictimaiyyəti belə davam etməsindən narahatdır və əbədi müharibə qorxusu hiss olunmaqdadır.

### Manеələr üzərində qaçış

Ötən həftə İtaliya hökuməti, xüsusilə, baş nazir Cüzeppe Konte, Romada Haftar və Saraj arasında görüş təşkil etməyə çalışdısa da, ancaq bu da baş tutmadı. Rusiya və Türkiyə danışıqlara kömək etməyə başladı. Ölkə liderləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan yanvarın 8-də İstanbulda görüşərək, Liviyadakı vəziyyəti müzakirə etdilər. Nəticədə, onlar hər iki tərəfin nümayəndələrini Moskvada danışıqlar üçün toplamaq təklifi irəli sürdülər. Əvvəlcə Haftar Rusiya-Türkiyə təşəbbüsünü rədd etdi. Bir gün sonra o, fikrini dəyişdi, Putinin müdaxiləsini xatırlatdısa da, nədənsə, Ərdoğanın rolunu bilərəkdən görməzliyə vurdu. Beləliklə, Ankara və Moskva görüşü hazırlamaq üçün razılıq əldə etdilər.

Liviya nizamlanmasına dair danışıqlar yanvarın 13-də Xarici İşlər Nazirliyində baş tutdu və 10 saatdan çox davam etdi. Rusiya və Türkiyənin xarici işlər və müdafiə nazirləri də danışıqlara qatıldı. Eyni zamanda, Haftar və Saraj birbaşa danışıqlar aparmadılar, Moskva və Ankaranın vasitəçiliyi ilə kifayətləndilər. Həmin ərəfədə "Əl-Arabiya" kanalı ilkin razılaşmanın bəzi məqamlarını yayımladı. Onların arasında türk qoşunlarının Liviyaya köçürülməsinin, terrorçularla mübarizənin, sərhədsiz atəşkəsin tətbiqi və "barışıq hökuməti"nin yaradılması ola biləcəyi iddia edildi. Bəzi ərəb KİV-lərinin yaydıqları sazişin mətnində tərəflər, münaqişənin həllinə məcbur etməkdən imtina etməyə çağırıldı.

Belə bir təəssürat yarandı ki, vasitəçilər tərəfləri danışıqlara dəvət edirsə də, onlar hər hansı bir vasitə ilə danışıqlardan imtina edir, yayınır, bir sözlə, qaçır. Qısa şəkildə desək, sadəcə sonda sülh danışıqları manеələr üzərində qaçış kimi görünməyə başladı. Razılaşmadan əvvəl Haftar tərəfdarlarının fikir ayrılığı özünü büruzə verdi. Saraj və Liviya Ali Dövlət Şurasının rəhbəri Xalid əl-Mişri sənədi imzaladılar, lakin Haftar özü düşünmək üçün səhərə qədər fasilə götürdü. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "bəzi irəliləyişlər əldə olunduğuna" əminliyinə baxmayaraq, yanvarın 14-də o, Moskvadan ayrıldı.

İddia olunur ki, Haftar müqavilənin şərtləri ilə tələb olunan hərbi hücumu dayandırmaq istəməyib. Komandirə yaxın mənbələrə görə, onun tələbləri nəzərə alınmadığı üçün sənəd imzalanmayıb. Onun nümayəndələri iddia edirlər ki, saziş ölkəni daha da parçalaya bilər.

Liviyadakı vəziyyət yalnız Rusiyanı və Türkiyəni narahat etmir. Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları, Birləşmiş Millətlər Təşkilatı və Ərəb Dövlətləri Liviyadakı ziddiyyətlərdən narahatlıq keçirirlər. Beləliklə, sonuncular hesab edirlər ki, Liviyanın daxili işlərinə hər hansı bir xarici müdaxilənin də qarşısı alınmalıdır. Ağ Evdə eyni şəkildə danışılır. ABŞ hökuməti tərəflərin münaqişənin həlli üçün təcili tədbirlər görməli olduqlarını bəyan edir.

Liviyaya qonşu olan ölkələr vəziyyətdən, xüsusilə, narahatdırlar. Qahirədən silah tədarükü barədə xəbərlər meydana çıxıb. Noyabr ayında Liviyada S-130 hərbi yük təyyarəsi görünüb və ehtimal olunur ki, bu, Misir tərəfində hərəkət edir. Liviya münaqişəsinin səbəb olduğu problemlərdən danışan xarici işlər naziri İbrahim Hassan Tahın sözlərinə görə isə, Liviyanın cənubunda olduğu iddia edilən Sudan milisi özü də xüsusi bir təhdiddir.

### Zor və güc tətbiqi sülh və sakitlik gətirə bilməz

Ümumiyyətlə, beynəlxalq ictimaiyyət Liviyadakı hərbi ssenarinin daha tez bitməsini istəyir. Bu fikir Fransa Xarici İşlər Nazirliyində də ifadə edilib. Parisdə bəyan edildi ki, tərəflərdən birinin zorla, güc tətbiq edilməsi ilə qələbəsi siyasi bir nizamlanmanın əksinə olaraq sülh və sakitlik gətirə bilməz.

Bununla yanaşı, əgər Rusiya və Türkiyə, sadəcə, vasitəçilik etmək əvəzinə, Liviyaya birbaşa yardım etmək qərarına gələlər, münaqişə yeni bir dövrə başlaya, yeni mərhələyə keçə bilər. Belə ki, vəziyyət gərginləşə və Afrika ölkəsi Moskva ilə Ankara arasında müharibə meydanına çevrilə bilər. Xatırladaq ki, Rusiya öz hərbi texnikasını xaricə ixrac edir. Türkiyənin özü isə rəqibinə S-400 Triumf hava hücumundan müdafiə sistemi almaq üçün müraciət edir. Bütün bunlarla yanaşı, Türkiyə hərbçiləri Liviyaya daha yaxındırlar. Bir sözlə, tərəflərin hər birinin öz üstünlükləri var və qarşıdurma heç də arzuolunan deyil.

Liviyalıların öz burunlarının önündə baş verənlər barədə özlərinin nə düşündüklərini söyləmək çətindir, baxmayaraq ki, onların bir çoxunun muzdluları açıq şəkildə qəddarlıq və kobudluq nümayiş etdirirlər. Döyüşlərin əks olunduğu videodakı şərhlərdə "Ey Putin itləri, Liviya sizin qəbiriniz olacaq!" yazırlar. Parçalanmış hökumətin nümayəndələri də münaqişəyə müdaxilə etmək istəyənləri hədələyirlər. Liviya ordusunun sözçüsü Məhəmməd Qnunu özü də, "Tezliklə vətənimizə qarşı döyüşən bütün muzdlular üçün cəhənnəm gələcək" deyib.

Barışıq cəhdlərinə baxmayaraq, Liviya müharibəsinin sonu hələ də görünmür. Bu mərhələdə beynəlxalq təşkilatlar, hətta Liviya iqtisadiyyatı haqqında məlumat da toplaya bilmirlər. Sadəcə, etiraf edilməlidir ki, etibarlı məlumat yoxdur. Dünya Bankının məlumatına görə, Liviyadakı münaqişə 2016-cı ildə yenidən iqtisadi çöküşə səbəb olub. Qarşıdurma müddətində, yalnız beş il ərzində, neft hasilatı dörd dəfə azalıb. ÜDM, ən azı iki dəfə aşağı düşüb. İlkin ehtimala görə, hər il Liviyada 14 mindən 30 minə qədər insan ölür. İnsan təlefatı ilə yanaşı, 150 mindən çox insan ölkəni tərk etmək məcburiyyətində qalır. "Cəhənnəmin" artıq çoxdan gəldiyi görünür və bu, yalnız xarici muzdlulara deyil, həm də liviyalıların özlərinə də birbaşa aiddir. İlk növbədə, belə bir çətinlikdə onların özləri qalırlar və tələfat da, ölkəni tərk etmək məcburiyyəti kimi təsirlər də, birinci növbədə, onların özlərinə toxunur.

Qeyd olunduğu kimi, regionda daha çox qonşu dövlətlərin narahatlığı özünü aydın şəkildə büruzə verir və bu da, tamamilə başadüşülləndir. Çünki hər bir region ölkəsi yaxınlığında qeyd olunan "cəhənnəmin olması" səbəbindən narahatdır. Afrikalıların ehtiraslarının və ambisiyalarının qurbanı olmağı, bu ehtirasların regionu "cəhənnəmə" döndərməsini də kimsə istəməz.

***İnam HACIYEV***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

18 yanvar

# SƏS

Son səhifə



## Ronaldo "Yuventus"da ən yaxşı futbolçu seçildi

*"Yuventus"da dekabr ayının ən yaxşı futbolçusu müəyyənləşib. İtaliya klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, bu ada Kriştiano Ronaldo layiq görülüb. 34 yaşlı portuqaliyalı hücumçu ötən ay 6 oyuna 6 qol vurub. Qeyd edək ki, bu mövsüm İtaliya A seriyasında 14 qol vuran Ronaldo Turin klubunun bombardiridir.*



## "Formula 1-in Bakı mərhələsi sadəcə öyünməli hadisədən daha artıqdır"

Britaniyanın "Pricewaterhouse-Coopers" agentliyi ilə tərəfdaşlıq şəraitində Azərbaycan Qran-Prisinin təşkilatçıları dörd il ərzində Formula 1 mərhələlərinin keçirilməsindən əldə edilən iqtisadi səmərənin 506 milyon dollar olması qənaətinə gəliblər. Bu halda birbaşa xərclər təxminən 300 milyon dollar olub.

AZƏRTAC xəbər verir ki, Qran-Prinin keçirilməsindən ən çox mənfəət götürən turizm, nəqliyyat, mehmanxanalar və qidalanma ilə bağlı şirkətlər olub: onlar dörd il ərzində Formula 1 mərhələsi hesabına 73,8 milyon dollar qazanıblar. Hər il əsasən gənclər üçün nəzərdə tutulan 7500-ə yaxın müvəqqəti iş yeri yaradılıb. Gənclər iri beynəlxalq idman tədbiri keçirilməsi sahəsində nadir təcrübə qazanıblar. "Baku City Circuit"in icraçı direktoru Arif Rəhimov deyib: "Biz həmişə vurğulamışıq ki, Formula 1-in Bakı mərhələsi sadəcə öyünməli hadisədən daha artıqdır. Qran-Pri iqtisadi, sosial və mədəni dəyişikliklərin hərəkətverici qüvvəsinə çevrilməli, sakinlər və əməkdaşlar üçün yeni imkanlar yaratmalı idi. Beləliklə, son illərdə ən cəsarətli gözləntiləri də üstələyə bilmişik".

### ELAN

Azərbaycan Turizm və Menecment Universitetinin "Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması" fakültəsinin II kurs tələbəsi Vəliyev Anar Ağakişi oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Məşhur yazıçı 95 yaşında vəfat etdi



Yazıçı Con Tolkinin oğlu Kristofer Tolkin 95 yaşında vəfat etdi. TASS informasiya agentliyi xəbər verir ki, bu barədə Tolkin Beynəlxalq Cəmiyyəti "Twitter" səhifəsində məlumat yayıb. Son illəri yazıçı xanımı Beyli ilə Fransada yaşayırdı.

Kristofer Tolkin Britaniya yazıçısı, linqvist, şair, filoloq, Oksford Universitetinin professoru, "Hobbit və ya oraya və geriyə", "Üzüklərin hökmdarı", "Silmarillion" kimi macəra romanlarının müəllifi Con Tolkinin üçüncü oğludur. Atasının başa çatdırmadığı "Silmarillion" romanını tamamlaması ona şöhrət gətirib. Kristofer Tolkin də atası kimi uzun illər Oksford Universitetinin professoru olub.



## Pendir qutusundan narkotik vasitələr tapılıb

Xama və pendir qutularının içərisində narkotik vasitələr və psixotrop maddələr aşkarlanıb. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Cənub Ərazi Baş Gömrük İdarəsinin Biləsuvar gömrük postunda İrandan piyada yolla gələn Azərbaycanın iki vətəndaşı saxlanılıb. Hər iki vətəndaşın əl yükləri rentgen yük yoxlama qurğusundan keçirilən zaman şübhəli cizgilər müşahidə olunub. Şifahi sorğu sual zamanı vətəndaşlar üzərlərində gömrük nəzarətindən gizlədilən və mütləq bəyan olunmalı hər hansı bir predmetin, o cümlədən narkotik vasitə, psixotrop maddələrin olmadığını bildiriblər. Yüklərin yoxlanması zamanı isə 14 ədəd üzərində "Pegah Cream dairy" yazısı olan xama qutusunun içərisində rezin şarlarda, çəkisi 1619 qram narkotik vasitə - heroin, üzərində "Mihan white cheese" yazılan pendir qutusunun içərisində 117 qram psixotrop maddə - metamfetamin və 21 qram narkotik vasitə -tiryək aşkarlanıb.

Xatırladaq ki, metamfetamin "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələrin I Siyahısı"na daxildir. Faktla bağlı araşdırma aparılır.

## Saatlıda bir ailənin beş üzvü göbələkdən zəhərlənib



Saatlı rayonunda zəhərlənmə hadisəsi baş verib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, hadisə rayonun Seyidlər kəndində qeydə alınıb. Seyidlər kənd sakini Məmmədov Əbülfəz Ağarza oğlu, onun həyat yoldaşı Məmmədova Xuraman Xuda qızı, övladları Əli, əkiz qardaşlar Vahid və Zahid zəhərlənmə diaqnozu ilə Saatlı Rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar.

Xəstəxanada həkimlər tərəfindən onlara ilkin tibbi yardım göstərilib. Tibb mərkəzindən verilən məlumata görə, ailə üzvlərinin vəziyyətləri stabildir. Onlar göbələkdən zəhərləndiklərini bildirirlər. Faktla bağlı araşdırma aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600